Azərbaycanın görkəmli şəxsiyyətləri



# İLYAS ƏFƏNDİYEV

## Biblioqrafiya

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Azərbaycanın görkəmli şəxsiyyətləri*

# İLYAS ƏFƏNDİYEV

***(İlyas Məhəmməd oğlu Əfəndiyev)***

***Biblioqrafiya***

2-ci təkmilləşdirilmiş nəşri

**Bakı – 2024**

**UOT:** 016:82.09-05(479.24)
**KBT:** Я19:Ш5(2=Аз)7-8я1

**Tərtibçilər:** **Gülbəniz Səfərəliyeva,**
*Əməkdar mədəniyyət işçisi*
**Günel Əfəndiyeva**

**Elmi redaktor:** **Kərim Tahirov,**
*Professor,*
*Əməkdar mədəniyyət işçisi*

**Ön sözün müəllifləri:** **İsa Həbibbəyli,**
*Akademik*
**Şirindil Alışanlı**
*Professor,*
*Filologiya elmləri doktoru*

**Redaktor:** **Mehriban Cəfərova**

**İlyas Əfəndiyev** (İlyas Məhəmməd oğlu Əfəndiyev): biblioqrafiya / Tərt. ed.: G.Səfərəliyeva, G.Əfəndiyeva; elmi red. K.Tahirov; ön söz. müəl.: İ.Həbibbəyli, Ş.Alışanlı; red.M.Cəfərova. – 2-ci təkmilləşdirilmiş nəşri. – Bakı, 2024. – 496 s.

Milli Kitabxananın "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından hazırladığı bu biblioqrafiya Xalq yazıçısı, respublika Dövlət mükafatı laureatı, görkəmli dramaturq İlyas Əfəndiyevin 110 illik yubileyinə həsr edilmişdir. Göstərici Milli Kitabxana tərəfindən yazıçı haqqında tərtib edilmiş biblioqrafiyanın təkmilləşdirilmiş ikinci nəşridir. Vəsaitdə İlyas Əfəndiyevin kitabları, dövri mətbuatda, dərslik və məcmuələrdə dərc olunmuş əsərləri, eləcə də həyat və yaradıcılığı haqqında zəngin material toplanmışdır. Biblioqrafiyanın "İlyas Əfəndiyev dünya milli kitabxanalarında" bölməsində görkəmli yazıçının dünyanın nüfuzlu kitabxanalarında mühafizə olunan əsərləri və haqqında yazılan materiallar da öz əksini tapmışdır.

Kitab ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN 978-9952-583-06–9**

**© Azərbaycan Milli Kitabxanası, 2024**

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Prominent personalities of Azerbaijan*

# ILYAS EFENDIYEV

***(Ilyas Mahammad oglu Efendiyev)***

***Bibliography***

2nd improved edition

**Baku – 2024**

**LBC:** 016:82.09-05(479.24)
**UDC:** Я19:Ш5(2=Аз)7-8я1

**Compiled by:** **Gulbeniz Safaraliyeva,**
*Honored Cultural worker*
**Gunel Efendiyeva**

**Scientific editor:** **Karim Tahirov,**
*Professor,*
*Honored Cultural worker*

**Authors of the foreword:** **Isa Hebibbeyli,**
*Academician*
**Shirindil Alyshanli**
*Professor,*
*Doctor of Philological sciences*

**Editor:** **Mehriban Jafarova**

**Ilyas Efendiyev** (Ilyas Mahammad oglu Efendiyev): bibliography / Compiled by: G.Safaraliyeva, G.Efendiyeva; scientific ed. K.Tahirov; authors of the for.: I.Hebibbeyli, S.Alyshanli; ed. M.Jafarova. – 2nd improved edition. – Baku, 2024. – 496 p.

This bibliography prepared by the National Library from the series “Prominent personalities of Azerbaijan” is dedicated to the 110th anniversary of Ilyas Efendiyev, People's writer, winner of the Republican State Prize, outstanding playwright. The index is an improved second edition of the bibliography of the author compiled by the National Library. The collection contains Ilyas Efendiyev's books, works published in periodicals, textbooks and anthologies, as well as rich material about his life and creativity. In the “Ilyas Efendiyev in national libraries of the world” section of the bibliography, the information about the publications preserved in the world’s prestigious libraries and what is written about them is also reflected.

The book is intended for literary scholars, researchers, librarian-bibliographers and a wide range of readers.

**ISBN 978-9952-583-06–9**

**© Azerbaijan National Library, 2024**

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Выдающиеся деятели Азербайджана*

# ИЛЬЯС ЭФЕНДИЕВ

## (Ильяс Магомед оглу Эфендиев)

**Библиография**

2-е дополненное издание

**Баку – 2024**

**УДК:** 016:82.09-05(479.24)
**ББК:** Я19:Ш5(2=Аз)7-8я1

**Составители:** **Гюльбениз Сафаралиева,**
*Заслуженный работник культуры*
**Гюнель Эфендиева**

**Научный редактор:** **Керим Тахиров,**
*Профессор,*
*Заслуженный работник культуры*

**Авторы предисловия:** **Иса Габиббейли**,
*Академик*
**Шириндил Алышанлы**
*Профессор,*
*Доктор филологических наук*

**Редактор:** **Мехрибан Джафарова**

**Ильяс Эфендиев** (Ильяс Магомед оглу Эфендиев): библиография / Сост.: Г.Сафаралиева, Г.Эфендиева; науч. ред. К.Тахиров; авторы предисл.: И.Габиббейли, Ш.Алышанлы; ред. М.Джафарова. – 2-е дополненное издание. – Баку, 2024. – 496 с.

Данная библиография, подготовленная Национальной Библиотекой в серии «Выдающиеся деятели Азербайджана», посвящена 110-летию Народного писателя, лауреата Государственной премии Республики, выдающегося драматурга Ильяса Эфендиева. Указатель представляет собой второе обновленное и дополненное издание библиографии писателя, составленное Национальной библиотекой. Национальная В пособии представлены книги Ильяса Эфендиева, его произведения, опубликованные в периодических изданиях, учебниках и антологиях, а также ценный материал о жизни и творчестве писателя. В разделе «Ильяс Эфендиев в национальных библиотеках мира» отражена информация о произведениях писателя, хранящихся в известных библиотеках мира, а также литература о нем.

Книга предназначена для литературоведов, исследователей, библиотекарей-библиографов и широкого круга читателей.

**ISBN 978-9952-583-06-9**

**© Национальная Библиотека Азербайджана, 2024**

## İlyas Əfəndiyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikasının Prezidentinin Fərmanı

Azərbaycan dramaturgiyası və nəsrinin inkişafında böyük xidmətləri olan İlyas Məhəmməd oğlu Əfəndiyev "Şöhrət" ordeni ilə təltif edilsin.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 may 1994-cü il*

**İlyas Əfəndiyevin**
**xatirəsinin əbədiləşdirilməsi haqqında**

**Azərbaycan Respublikasının Prezidentinin Fərmanı**

Azərbaycanın xalq yazıçısı İlyas Məhəmməd oğlu Əfəndiyevin xatirəsini əbədiləşdirmək məqsədi ilə QƏRARA ALIRAM:

1. Bakı Şəhər İcra hakimiyyəti Bakı şəhərinin küçələrindən birinə İlyas Əfəndiyevin adının verilməsini və yaşadığı binaya (Hüsü Hacıyev küçəsi, 19) xatirə lövhəsinin vurulmasını təmin etsin.

2. Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin tələbələri üçün İlyas Əfəndiyev adına xüsusi təqaüd təsis etsin və orta məktəblərdən birinə onun adını versin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

- İlyas Əfəndiyevin əsərlərindən ibarət oncildliyin nəşrini təmin etsin;
- İlyas Əfəndiyevin “Hökmdar və qızı” əsəri əsasında iki seriyalı bədii filmin çəkilişini təmin etsin;
- bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 mart 2001-ci il*

## İlyas Əfəndiyevin
## 90 illik yubileyi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi xalq yazıçısı İlyas Məhəmməd oğlu Əfəndiyevin 90 illik yubileyi ilə əlaqədar qərara alıram:

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə və Azərbaycan Milli Elmlər Akademiyasına tapşırılsın ki, Yazıçılar Birliyi ilə birlikdə İlyas Əfəndiyevin 90 illik yubileyi ilə bağlı lazımi tədbirlər hazırlayıb həyata keçirsinlər.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 may 2004-cü il*

**İlyas Əfəndiyevin**
**100 illik yubileyinin keçirilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2014-cü ilin may ayında Azərbaycanın xalq yazıçısı, respublika Dövlət mükafatı laureatı, görkəmli dramaturq İlyas Məhəmməd oğlu Əfəndiyevin anadan olmasının 100 illiyi tamam olur.

İlyas Əfəndiyev klassik ədəbi fikrin böyük ənənələri zəminində öz üslubunu yaradan sənətkar kimi xalqımızın söz sənəti xəzinəsinə dəyərli töhfələr vermişdir. Yazıçının bədii nailiyyətlərlə zəngin irsi ədəbiyyatımızda yeni mərhələnin təşəkkülünə səmərəli təsir göstərmişdir. Azərbaycan teatr səhnəsinin müasir simasının formalaşmasında İlyas Əfəndiyev dramaturgiyası özü- naməxsus əhəmiyyətli yer tutur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ədəbiyyatın inkişafında xidmətləri olan İlyas Əfəndiyevin 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, xalq yazıçısı İlyas Əfəndiyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 16 yanvar 2014-cü il*

## Səmimi təbrik

## Xalq yazıçısı İlyas Əfəndiyevə

*Əziz və hörmətli sənətkarımız!*

*Sizi – Azərbaycanın görkəmli dramaturq və nasirini 80 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Dünya mədəniyyətinə ölməz dühalar bəxş etmiş qədim Odlar diyarında xalqın məhəbbətini qazanmaq, sənət zirvəsinə ucalmaq çətin və şərəflidir. Siz fədakar əməyiniz sayəsində bu şərəfə nail olmuşsunuz.*

*Oxucuların sevə-sevə mütaliə etdiyi nəsr əsərləriniz, milli teatrımızın səhnəsində tamaşaya qoyulan pyesləriniz bunu parlaq şəkildə sübut edir.*

*Hörmətli İlyas müəllim! Sizin yaratdığınız obrazlar xalqımızın övladlarına mənəvi saflıq və vətənpərvərlik aşılanması işinə xidmət etmişdir. Əminəm ki, müstəqil Azərbaycanımızın hələ neçə-neçə nəsli bu zəngin mənbədən faydalanacaqdır. Sizə möhkəm can sağlığı, çətin və şərəfli yaradıcılıq yolunda uğurlar arzulayıram.*

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 may 1994-cü il*

***Dünyada böyük sənətkarlar çoxdur və onların böyüklük dərəcəsi də müxtəlifdir, lakin hər xalqın öz dahisi, öz sənət ulduzları vardır, bu ulduzlar, ilk növbədə öz doğma xalqları üçün əzizdir, çünki onların işığı həmin xalqlara aydınlıq, fərəh və sevinc gətirmişdir.***

**İlyas Əfəndiyev**
**Xalq yazıçısı**

## Göstərici haqqında

2024-cü ildə Azərbaycanın Xalq yazıçısı, respublika Dövlət mükafatı laureatı, görkəmli dramaturq İlyas Məhəmməd oğlu Əfəndiyevin anadan olmasının 110 illiyi tamam olur. Azərbaycan ədəbiyyatında önəmli yeri olan, milli ədəbiyyatımıza öz unudulmaz dəst-xəttini miras qoyan İlyas Əfəndiyev özünəməxsus orijinal yaradıcılıq yolu keçmiş, ölməz sənət nümunələri ilə xalqımızın söz sənətinə dəyərli töhfələr qazandırmışdır. Lirik-psixoloji üslubun yaradıcılarından biri, XX əsrin klassiki İlyas Əfəndiyev bədii əsərlərlə yanaşı ədəbiyyat və incəsənətimizin mühüm problemləri ilə bağlı yüzlərlə bədii-publisistik məqalənin – xatirə, portret, oçerk, ithaf, məktub, informativ məqalə, icmal və müsahibənin də müəllifidir. Təkcə Azərbaycan nəsrində deyil, həm də teatr sənətinin müasir simasının formalaşmasında İlyas Əfəndiyev dramaturgiyası əhəmiyyətli və nəhəng yer tutur. Son 70 il ərzində görkəmli dramaturqun ölməz səhnə əsərləri ölkəmizin aparıcı teatrlarının repertuarının əsasını təşkil etmiş, bir neçə aktyor və rejissor nəslinin yetişməsində əhəmiyyətli rol oynamışdır. Ədibin əsərləri dünyanın onlarla ölkəsində müxəlif dillərə tərcümə olunmuşdur.

İlyas Əfəndiyevin yaradıcılığının genişliyi və çoxşaxəliliyi onun biblioqrafik informasiya təminatının labüdlüyünü doğurmuş və ədib haqqında biblioqrafik göstəricilərin tərtib olunması ehtiyacı yaranmışdır. Xalq yazıçısı haqqında ilk biblioqrafiya 1985-ci ildə tərtib edilmişdir (İlyas Əfəndiyev: [biblioqrafik göstərici] / Tərt. ed. Əmin Əfəndiyev. – Bakı: Azərnəşr, 1985. – 124 s.). Sonralar da biblioqrafik informasiyaları özündə ehtiva edən vəsaitlər tərtib edilmiş, 2014-cü ildə Milli Kitabxana tərəfindən yazıçının 100 illik yubileyi münasibətilə sanballı biblioqrafik göstərici nəşr edilmişdir.

İlyas Əfəndiyevin anadan olmasının 110 illik yubileyi münasibətilə Milli Kitabxana tərəfindən tərtib olunan və ədibin ədəbi-ictimai fəaliyyətini tam şəkildə əks etdirən bu biblioqrafik göstərici daha da təkmilləşdirilmiş, yeni materiallar da əlavə edilərək xeyli zənginləşdirilmişdir.

Azərbaycan və rus dillərində dərc edilən materiallardan ibarət olan biblioqrafik vəsait 1938-2024-cü illəri əhatə edir. Biblioqrafiyada yazıçının bir çox xarici dillərdə çap edilən əsərləri və haqqında sənədlər də ayrıca bölmədə toplanmışdır. Biblioqrafik vəsaitin informativ dəyərini artıran bölmələrdən biri "İlyas Əfəndiyev dünya milli kitabxanalarında" və "İlyas Əfəndiyev dünya

universitet kitabxanalarında" bölmələridir ki, burada ədibin dünyanın iri ölkələrinin nüfuzlu kitabxanalarında saxlanılan müvafiq ədəbiyyat haqqında zəngin məlumat öz əksini tapmışdır.

Kitabın "İlyas Əfəndiyevin müdrik deyimləri", "İlyas Əfəndiyev elm və mədəniyyət xadimləri haqqında", "Elm və mədəniyyət xadimləri İlyas Əfəndiyev haqqında" bölmələrində verilmiş materialların müxtəlif oxucu qruplarının marağına səbəb olacağı da şübhəsizdir.

Biblioqrafiyadan istifadəni asanlaşdırmaq məqsədilə kitabın sonunda İlyas Əfəndiyevin əsərlərinin və onun haqqında yazan müəlliflərin əlifba göstəricisi tərtib edilərək istifadəçilərin ixtiyarına verilmişdir.

Biblioqrafik göstərici geniş oxucu auditoriyası – tələbələr, tədqiqatçı-alimlər, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Göstərici haqqında rəy və təkliflərini bildirən mütəxəssis və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirərək, təklif və iradlarını, rəylərini Milli Kitabxanaya göndərmələrini xahiş edirik.

**Ünvan:** AZ-1000, Bakı şəh., Xaqani küç. 57;
**E-mail:** contact@anl.az ; URL: www.millikitabxana.az

## About the index

In 2024, the 110th anniversary of the birth of the People's writer of Azerbaijan, laureate of the Republic State Prize, prominent playwright Ilyas Mahammad oglu Efendiyev will be completed. Ilyas Efendiyev, who has an important place in Azerbaijani literature and left his unforgettable handwriting to our national literature, followed a unique original creative path and made valuable contributions to the speech art of our people with his immortal art examples. Ilyas Efendiyev, one of the creators of the lyrical-psychological style, a classic of the 20th century, is the author of hundreds of literary and journalistic articles - memoirs, portraits, essays, dedications, letters, informative articles, overviews and interviews - related to the important problems of our literature and art. Not only in Azerbaijani prose, but also in the formation of the modern face of theater art, the dramaturgy of Ilyas Efendiyev occupies an important and huge place. Over the past 70 years, the immortal stage works of the outstanding playwright have formed the basis of the repertoire of the leading theaters of our country, and played an important role in the upbringing of several generations of actors and directors. The writer's works have been translated into different languages in dozens of countries around the world.

The breadth and versatility of Ilyas Efendiyev's creativity has led to the necessity of his bibliographic information provision and the need to compile bibliographic indexes about the writer. The first bibliography about the popular writer was compiled in 1985 (Ilyas Efendiyev: [bibliographic index] / Edited by Amin Efendiyev. - Baku: Azernashr, 1985. - 124 p.). Later, materials containing bibliographic information were compiled, and in 2014, the National Library published a bibliographic index on the occasion of the writer's 100th anniversary.

For the 110th anniversary of Ilyas Efendiyev's birth, this bibliographic index, compiled by the National Library and fully reflecting the writer's literary and social activities, has been further improved and enriched by the addition of new materials.

The bibliographic material, consisting of materials published in Azerbaijani and Russian languages, covers the years 1938-2024. In the bibliography, the writer's works published in many foreign languages and documents about him are collected in a separate section. One of the sections that increase the informative value of the bibliographic resources are the sections "Ilyas

Efendiyev in the world national libraries" and "Ilyas Efendiyev in the world university libraries", where rich information about the relevant literature of the writer stored in the prestigious libraries of the major countries of the world is reflected.

There is no doubt that the materials presented in the book's sections "Wise sayings of Ilyas Efendiyev", "Ilyas Efendiyev about the figures of science and culture", "About the figures of science and culture Ilyas Efendiyev" will arouse the interest of different groups of readers.

In order to facilitate the use of the bibliography, at the end of the book, an alphabetical index of the works of Ilyas Efendiyev and the authors who wrote about him was prepared and given to the users.

The bibliographic index is intended for a wide readership - students, researchers, librarian-bibliographers and a wide readership.

Expressing our gratitude in advance to the experts and readers who expressed their opinions and suggestions about the index, we ask them to send their suggestions and comments to the National Library.

**Address:** Az-1000, Baku, Khagani str. 57
**E-mail:** contact@anl.az ; URL: www.millikitabxana.az

## Об указателе

В 2024 году исполняется 110-лет со дня рождения народного писателя Азербайджана, лауреата Государственной премии республики, выдающегося драматурга Ильяса Мухаммед оглы Эфендиева.

Самобытное творчество Ильяса Эфендиева бесспорно занимает важное место в азербайджанской литературе. Его исключительно оригинальный авторский стиль является одним из ценных достояний азербайджанской литературной традиции, а созданные им бессмертные художественные образы безусловно обогатили азербайджанскую прозу и драматургию.

Ильяс Эфендиев – один из основоположников лирико-психологического направления в азербайджанской литературе, классик XX-го века, автор не только художественных произведений, но и сотен художественно-публицистических статей: воспоминаний, портретов, очерков, посвящений, писем, информативных статей, обзоров и интервью. Драматургия Ильяса Эфендиева сыграла колоссальную роль не только в развитии азербайджанской прозы, и в формировании современного облика театрального искусства.

Нетленные драматургические произведения Ильяса Эфендиева составили основу репертуара ведущих театров нашей страны в последние 70 лет, сыграли важную роль в воспитании нескольких поколений актеров и режиссеров. Произведения автора переведены на разные языки во многих странах мира.

Неисчерпаемое и многогранное творчество Ильяса Эфендиева вызвало необходимость систематизации библиографической информации и составления библиографических указателей о писателе. Первая библиография об Ильясе Эфендиеве была создана в 1985 году (Ильяс Эфендиев: [библиографический указатель] / Сост. Эмин Эфендиев. – Баку: Азернешр, 1985. - 124 с.). В дальнейшем также составлялись пособия, содержащие библиографическую информацию. А в 2014 году к 100-летию со дня рождения писателя в Национальной Библиотеке был издан фундаментальный библиографический указатель.

К 110-летию со дня рождения Ильяса Эфендиева этот библиографический указатель, составленный Национальной Библиотекой и всесторонне отражающий литературную и общественную деятельность писателя, был существенно дополнен и обогащен новыми ценными материалами.

Библиографические ресурсы материалов на азербайджанском и русском языках, охватывают 1938-2024 годы. В отдельном разделе библиографии представлены произведения И.Эфендиева, изданные на многих иностранных языках, а также материалы о жизни и творчестве писателя. Одними из значимых информативных разделов являются: «Ильяс Эфендиев в национальных библиотеках мира» и «Ильяс Эфендиев в университетских библиотеках мира». Они отражают ценную информацию о произведениях писателя, хранящихся в крупнейших и престижных библиотеках мира.

Не вызывает сомнения, что материалы, представленные в разделах: «Мудрые изречения Ильяса Эфендиева», «Ильяс Эфендиев о деятелях науки и культуры», «Деятели науки и культуры об Ильясе Эфендиеве», вызовут неподдельный интерес у различных групп читателей.

Для облегчения работы с библиографическим указателем в конце его представлен алфавитный указатель произведений Ильяса Эфендиева и авторов, писавших о нем.

Библиографический указатель предназначен для обширной читательской аудитории – студентов, ученых-исследователей, библиотекарей-библиографов и широкого круга читателей.

Заранее выражаем благодарность специалистам и читателям за высказанные пожелания, замечания и предложения, и просим направлять их в Национальную библиотеку Азербайджана.

**Адрес:** AZ–1000, гор. Баку, ул.Хагани, 57.
**E-mail:** contact@anl.az URL: www.millikitabxana.az

**İsa Həbibbəyli**
*Akademik*

## Xalq yazıçısı İlyas Əfəndiyev
## Həyatın gerçəkliyi və təhkiyənin nağılı

Xalq yazıçısı İlyas Əfəndiyev XX əsr Azərbaycan ədəbiyyatının görkəmli yaradıcılarından biridir. O, bütün yaradıcılıq fəaliyyəti boyu ədəbi axtarışlarla məşğul olmaqda ardıcıl mövqe tutmağa, yorulmadan daim yazıb-yaratmağa üstünlük vermişdir. Yazıçılar İttifaqında, müxtəlif qəzet və jurnal redaksiyalarında, nəşriyyatlarda tutduğu bəzi vəzifələr də yaradıcılıq işi ilə bağlı olan sahələrdir. İlyas Əfəndiyev (1914-1996) həyatını bütövlüklə bədii yaradıcılıq işinə, böyük ədəbiyyata həsr etmişdir. Bədii yaradıcılıq onun yazıçılıq peşəsinin, fəaliyyət sahəsinin yox, həm də idealının ifadəsi idi.

İlyas Əfəndiyevin "Kənddən məktublar" adlı ilk hekayələr kitabının çapdan çıxdığı 1939-cu ildən ta 1996-cı ildə səhnəyə çıxarılmış axırıncı bədii əsəri sayılan "Hökmdar və qızı" pyesinə qədər keçilən 57 illik bir dövrün demək olar ki, hər ilinin ciddi ədəbi əsərləri və yaradıcılıq hesabatı vardır. XX əsr Azərbaycan ədəbiyyatının böyük bir dövrü İlyas Əfəndiyevin yaradıcılıq tərcümeyi-halı ilə bir yerdə, üzvü əlaqədə inkişaf etmişdir. Bu mənada İlyas Əfəndiyevin yaradıcılıq təkamülü həm də XX əsr Azərbaycan ədəbiyyatının inkişaf proseslərinin mühüm göstəriciləridir.

Azərbaycan ədəbiyyatının inkişafında mühüm rolu olan xalq yazıçısı İlyas Əfəndiyev mənalı bir ömür və sənət yolu keçmişdir. O, doğulduğu Füzuli şəhərində birinci dərəcəli məktəbi bitirdikdən sonra 1930-1933-cü illərdə rayonun orta məktəblərində dil və ədəbiyyat müəllimi kimi çalışmışdır.[1] İlyas Əfəndiyev 1934-1938-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun coğrafiya fakültəsini bitirmiş, bir müddət coğrafiya müəllimi kimi pedaqoji fəaliyyətini davam etdirmişdir. Təxminən 1938-ci ildən Bakıda yaşayan İlyas Əfəndiyev 10 ildən çox mətbuat sahəsində fəaliyyət göstərmişdir. O, 1938-1940-cı illərdə "Yeni yol" və "Kommunist" qəzetlərində ədəbi işçi vəzifəsində çalışmışdır. İlk qələm təcrübələrini bu dövrdə yazan İlyas Əfəndiyevin 1939-cu ildə çıxmış "Kənddən məktublar" adlı birinci hekayələr kitabında toplanan bədii nümunələr cavan yazıçını istedadlı qələm ustası kimi tanıtmışdır. "Ədəbiyyat qəzeti" 1940-

[1] Bax: Teymur Əhmədov. Azərbaycan yazıçıları XX-XXI əsrlərdə. Bakı, "Nurlan", 2011, s.464

1941-ci ildə çapdan çıxmışdır. Ədəbiyyat qəzetində 1940-1941-ci illərdə tənqid şöbəsinin müdiri vəzifəsində çalışması onun paytaxt ədəbi mühiti ilə daha yaxından tanış olmasına imkan yaratmışdır.

Bundan sonra 1941-1947-ci illərdə Azərbaycan Radio Komitəsində Ədəbiyyat şöbəsinin müdiri, eyni zamanda, Bakı Kinostudiyasında ssenari şöbəsinin rəisi, Azərnəşrdə Ədəbiyyat şöbəsinin, "İnqilab və mədəniyyət" jurnalı redaksiyasında nəsr şöbəsinin müdiri vəzifələrində işləməsi onun ədəbi taleyində mühüm rol oynamışdır. Sonrakı illərdə İlyas Əfəndiyev 1952-1958-ci illərdə Azərbaycan Yazıçılar İttifaqında nəsr üzrə məsləhətçi, 1958-1961-ci illərdə bu yaradıcılıq təşkilatında məsul katib, 1991-ci ildən Ağsaqqallar Şurasının üzvü kimi fəaliyyət göstərmişdir.

Əsasən nəsr və dramaturgiya sahəsində yaradıcılıqla məşğul olmuş İlyas Əfəndiyevin "Berlində bir gecə" adlı ilk hekayəsi 1939-cu ildə "Ədəbiyyat qəzeti"ndə çap edilmişdir. Sonrakı illərdə də o, hekayə janrında bədii yaradıcılığını davam etdirmişdir. "Kənddən məktublar" adlı 1939-cu ildə çıxan ilk hekayələr kitabından sonra İlyas Əfəndiyev "Aydınlıq gecələr" (1945), "Hekayələr" (1955), "Zəmidə bir turac səsləndi" (1967), "Qırçı və qırmızı çiçək" (1981) kimi hekayələr kitablarını çap etdirməklə bu janrda kamil bədii əsərlər yazmaq istedadını nümayiş etdirmişdir. İlyas Əfəndiyevin hekayələri kiçik janrın lirik-psixoloji üslubda yazılmış mükəmməl nümunələridir. Onun hekayələrində yaşadığı dövr üçün aktual və səciyyəvi olan ideoloji məsələlər deyil, həyatın və insan mənəviyyatının dərin qapıları və incə məqamları öz əksini tapmışdır.

Nəsr sahəsində xüsusi istedad nümayiş etdirən İlyas Əfəndiyevin romanları da XX əsr Azərbaycan ədəbiyyatının tarixində bu janrın orijinal və qiymətli örnəkləri kimi qəbul olunmuşdur. İlyas Əfəndiyev roman janrında yazdığı əsərləri ilə ədəbiyyatda özünü təsdiq etmişdir. Yazıçının "Söyüdlü arx" (1959), "Körpü salanlar" (1960), "Dağlar arxasında üç dost" (1964), "Sarıköynəklə Valehin nağılı" (1979), "Geriyə baxma, qoca" (1981), "Üçatılan" (1982) romanları Azərbaycan ədəbiyyatında bu janrın mükəmməl örnəkləri kimi qiymətləndirilir.

İlyas Əfəndiyevin yaradıcılığında dramaturgiyada xüsusi yer tutur. O, 1944-cü ildə Mehdi Hüseynlə birlikdə yazdığı "İntizar" pyesi ilə qələmini dramaturgiya sahəsində də sınaqdan çıxarmışdır. Nəsr sahəsində olduğu kimi, dramaturgiyada da İlyas Əfəndiyev lirik-psixoloji üslubda yazılmış pyeslərin mükəmməl nümunələrini yaratmışdır. Onun "İşıqlı yollar" (1947), "Bahar suları" (1948), "Atayevlər ailəsində" (1954), "Sən həmişə mənimləsən" (1964), "Unuda bilmirəm" (1968), "Məhv olmuş gündəliklər" (1969), "Mənim

günahım" (1967), "Mahnı dağlarda qaldı" (1971), "Qəribə oğlan" (1973), "Bağlardan gələn səs" (1975) pyesləri ilə Azərbaycan ədəbiyyatında lirik-psixoloji dramaturgiyanın əsası qoyulmuşdur. İlyas Əfəndiyevin "Xurşudbanu Natəvan" (1981), "Şeyx Məhəmməd Xiyabani" (1986), "Hökmdar və qızı" (1996) pyesləri tarixi dram janrında yazılmış ən yaxşı səhnə əsərləridir.

Zamanın arxasınca getməyib, daha çox zamanı arxasınca aparmağa çalışan xalq yazıçısı İlyas Əfəndiyev təkcə qəhrəmanlarını yox, oxucusunu da daim irəliyə doğru çağırmışdır. "Geriyə baxma, qoca" əsərində o, özünün də yazdığı kimi, ən çətin şəraitdə də daim irəliyə baxmış, həmişə müasirlik ruhu ilə yaşayıb-yaratmışdır. İlyas Əfəndiyev müasirlik məsələsinə gündəlik həyat kimi yox, inkişafda olan proses kimi baxmışdır. Millilik və müasirlik xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığının əsas qayəsini, başlıca mahiyyətini təşkil edir. Böyük ədibin müasirləri də onun yaradıcılığının əsas qayəsini təşkil edən müasirlik meyarının yazıçının əsərlərindəki rolunu diqqət mərkəzinə çəkmişdir. Bu baxımdan xalq yazıçısı Mirzə İbrahimovun aşağıdakı sözləri İlyas Əfəndiyevin yaradıcılığının ideya əsasını təşkil edən müasirlik prinsipinin əhəmiyyətini bütün dərinliyi ilə ifadə edir: "İlyas Əfəndiyevin əsərlərinin bədii təsir qüvvəsini və həyati, tərbiyəvi əhəmiyyətini artıran bir xüsusiyyəti qeyd etmək istərdim: o da müasirlikdir. İlyas bugünkü həyatdan, bugünkü adamlardan, bugünkü ictimai-mədəni proseslərdən yazır. O, həyatı empirik təsvirdən qaçır, dərinlərə, insanların mənəvi-əxlaqi aləminə enir, ora nəzər salır... İnsan şəxsiyyətinin daxilində, psixoloji aləmində, əxlaq və adətlərində baş verən dəyişiklikləri diqqətlə izləyir və bədii ifadəsini verir..."[2]

Bütün bunlara görə İlyas Əfəndiyevin müasirlik anlayışı bir çox məqamlarda zamanı qabaqlamış, "Körpüsalanlar" romanında olduğu kimi, hətta müəyyən mübahisələrə də səbəb olmuşdur. Azərbaycan ədəbiyyatında müasir ədəbi qəhrəman "Körpüsalanlar" romanındakı Səriyyənin taleyindən keçərək ideoloji mühitin buxovlarını qırmış, real həyata doğru inkişaf etmişdir. Əsərdəki Səriyyə obrazı Azərbaycan ədəbiyyatında müasirlik anlayışının yeni formatı idi. Səriyyə surəti ətrafında gedən mübahisələr nəticə etibarilə ədəbiyyatda yeni insan konsepsiyasının formalaşdırılmasında mühüm rol oynamışdır. Bu mübahisələri ədəbi mühit, yaxud ədəbiyyatşünaslıq elminin tezisləri yox, həyatın dinamik axarı, cəmiyyətdə inkişaf edib dəyişən münasibətlər həll etmişdir. "Körpüsalanlar" romanı sosialist realizmi dövründə ideoloji çərçivədə yaranan

[2] Mirzə İbrahimov. Böyük ideallar, böyük qəhrəmanlar ədəbiyyatı. "Ədəbiyyat və incəsənət" qəzeti, 23 sentyabr, 1984

ədəbiyyatla həyat nəfəsli müasir ədəbiyyat arasında möhkəm körpü funksiyasını yerinə yetirmişdir. İlyas Əfəndiyevin "Bahar suları" povesti və "Söyüdlü arx" romanı Azərbaycan ədəbiyyatında milli realist nəsrin möhkəm dayaqlar üstündə körpü salan mükəmməl nümunələridir. Bu əsərlərdə gerçək həyat hadisələri və real insan obrazları böyük istedadla təsvir edilmişdir.

Xalq yazıçısı İlyas Əfəndiyev sovet-dövründə yaşayıb-yaradan, lakin mövcud ideologiyadan mümkün olduqca uzaqda dayanıb, həyatı və insanı reallıqları ilə təsvir etməyə üstünlük verən görkəmli sənətkardır. Onun yaradıcılığında insan mənəviyyatının dərinlikləri və incəlikləri böyük istedadla rəsm edilmişdir. Bu mənada İlyas Əfəndiyevin yaradıcılığı Azərbaycan ədəbiyyatında Cəlil Məmmədquluzadə məktəbi ilə "altmışıncılar" ədəbi nəsli arasında da möhkəm körpülərdən biri olmuşdur. Eyni zamanda, İlyas Əfəndiyevin yaradıcılığı həm də özündən əvvəl ideoloji tələblərin dalğasında ədəbiyyata gəlmiş ədəbi nəsillə yeni ədəbi nəsil arasında da ədəbiyyatı həyata və insana doğru inkişaf etdirmək baxımından əhəmiyyətli mövqeyə malikdir. Cəlil Məmmədquluzadə və Əbdürrəhim bəy Haqverdiyevdən gələn milli-bədii nəsr ənənəsi İlyas Əfəndiyevin həyata doğru istiqamətlənmiş yaradıcılığından keçərək, Azərbaycan altmışıncılarına çatmışdır. Bu baxımdan, İlyas Əfəndiyev və onun mənsub olduğu ədəbi nəsli Azərbaycan ədəbiyyatının "Aralıq nəsli" adlandırmaq olar. Məhz İlyas Əfəndiyevin ədəbi nəsli Azərbaycan ədəbiyyatında ideoloji prinsiplərin buxovlarını sındıraraq, gerçək həyata və real insana doğru istiqamətləndirməklə estafeti "altmışıncılar" adlı yeni nəslə çatdırmışdır.

Azərbaycan ədəbiyyatında İlyas Əfəndiyev lirik-psixoloji nəsrin əsas yaradıcılarından biri kimi qəbul olunur. Təhkiyəsindəki dərin lirizm onun bədii düşüncəsinin obrazlı təqdimatını şərtləndirir. İlyas Əfəndiyevin nəsr əsərlərindəki nağılvari bədii təhkiyə həyatın reallıqlarını cəlbedici və koloritli şəkildə təsvir etməyə şərait yaradır. Bu mənada "Kənddən məktublar" (1939) kitabındakı hekayələr səmimiyyətinə, emosional düşüncə tərzinə və nağılvari təhkiyəsinə görə əsl mənada məktub təsiri bağışlayır. Bu, Azərbaycan kəndistanının bədii ədəbiyyat formatında ifadə olunan məktublarıdır. İlyas Əfəndiyevin əsərlərinin dili və üslubu sadə, aydın və şəffafdır. Bu mənada "Bahar suları" povesti yazıçının əsərlərindən birinin adı olmaqla bərabər, həm də ədibin yaradıcılığındakı təbiiliyin də ifadəsidir. "Sarıköynəklə Valehin nağılı" əsəri roman səviyyəsində nağıldır. Gerçəklik və macəra, adilikdə dərinlik "Sarıköynəklə Valehin nağılı" romanının ruhunu, aparıcı xəttini müəyyən edir. Janrından və həcmindən asılı olmayaraq bütün əsər boyu bədii təhkiyəni eyni yüksək səviyyədə axıradək davam etdirmək İlyas Əfəndiyevin yaradıcılığının nağılıdır.

"Söyüdlü arx" romanındakı aşağıdakı nəsr parçası nağıl qədər aydın, axıcı, obrazlı və təsirlidir: "Gecələr Söyüdlü arxda ulduzlar çiməcək. Ay işığında yuxulu yarpaqlar suya zərif kölgə salacaq. Quzey qışlaqda qurbağaların səsləri eşidiləcək. İndi ürəklərə əzab verən gizli dərdlər də o zaman xoş xatirələrə çevriləcək. Çünki su – xoşbəxtlikdir, su – aydınlıqdır.[3]

...Qapılara cavan çinarlar qalxacaq. Alma, armud çiçəkləri arasında quşlar yurd salacaq. Söyüdlü arxın kənarında bitən yarpızlar ətir saçacaq. Onların üzərində bəzəkli böcəklər uçuşacaq... O zaman saçları ağarmış atalar bığ yerləri tərləyən oğullarına baxıb iftixarla köks ötürəcəklər. Çünki su – xoşbəxtlikdir, su – aydınlıqdır."

Bu, - İlyas Əfəndiyevin nəsr təhkiyəsinin və yazıçının lirik-psixoloji üslubunun həyatın və insanın daxili dünyasının ritmləri ilə səsləşən nağılının bədii ifadəsidir. Bu təhkiyə tərzi zaman-zaman inkişaf edərək, bədii əsərdə lirik-psixoloji ovqatın daha dərin və obrazlı ifadəsinə xidmət etmişdir. Bu mənada İlyas Əfəndiyev Azərbaycan ədəbiyyatında lirik-psixoloji nəsr üslubunu kəşf etmiş görkəmli yazıçıdır.

İlyas Əfəndiyevin dram əsərləri Azərbaycan ədəbiyyatında lirik-psixoloji dramaturgiyanın möhkəm bünövrəsi və real təzahürləridir. O, dram əsərləri ilə insanın mənəvi aləmini, daxili dünyasını, dərin yaşantılarını, həyəcanlarını, iztirablarını, ümidlərini böyük səhnədə məharətlə canlandırmışdır. Xalq yazıçısının "Sən həmişə mənimləsən", "Unuda bilmirəm", "Məhv olmuş gündəliklər", "Mahnı dağlarda qaldı" kimi dərin lirizmi və ondan mühüm olan realizmi ilə səhnəyə və ədəbiyyata möhür vuran dram əsərləri Azərbaycan teatrının və dramaturgiyasının tarixində və taleyində fərqli hadisələrdir. Həyatın ilk baxışda adi görünən dərinliklərini, insanın daxili aləminin qəribəliklərini, günahı, nakam sevgini və tənhalığın faciəsini səhnəyə gətirən İlyas Əfəndiyevin dram əsərlərindən çıxan ən mühüm nəticə "katarsis" - mənəvi təmizlənmədir. Onun yaratdığı obrazlar günahdan, yanlışlıqdan, səhvlərdən mənəvi cəhətdən saflaşmağa, bütövlüyə, təmizlənməyə doğru təkamül prosesi keçirirlər. Bu əsərlərdə ictimai baxışlar və ideoloji mövqelər deyil, mənəvi münasibətlər biri digəri ilə mübarizə aparır, nəticədə ayrı-ayrı adamlar yox, əqidələr, dəyərlər çətin sınaqlardan çıxaraq qalib gəlir. Görkəmli teatrşünas, professor Cəfər Cəfərovun "Sən həmişə mənimləsən" tamaşası haqqındakı aşağıdakı fikirləri ümumilikdə İlyas Əfəndiyevin dramaturji qayəsini mənalandırır: "Sən həmişə mənimləsən" tamaşasında aydın hiss olunur ki, həyat və mühitlə üzləşən təklik

[3] İlyas Əfəndiyev. Söyüdlü arx. Bakı, "Gənclik", 1974, s.213

getdikcə gücünü itirir, təzyiqini zəiflədir və məğlub olur. Bu məğlubiyyətin təşviqində dramaturq və teatr təkliklə mühitin toqquşması ilə kifayətlənmir, personajların öz daxilində gedən ziddiyyətli mübarizəni ifadəli şəkildə göstərməyə çalışır.[4]

Mənəvi münasibətlərin ən incə məqamlarına və dərinliklərinə işıq saldığını görə xalq yazıçısı İlyas Əfəndiyevin dram əsərləri bu gün üçün də aktual ola biləcək, böyük səhnədə həmişə müasir səslənə bilən qiymətli sənət örnəkləridir. Heç şübhəsiz, İlyas Əfəndiyev insan münasibətlərinin dərinliklərini Azərbaycan teatrının müasir səhnəsinə çıxarmaqda ədəbiyyatı qabaqlamışdır. Bütün bunlar İlyas Əfəndiyev teatrının özünəməxsus simasıdır.

Ümumiyyətlə, İlyas Əfəndiyev teatrı Azərbaycan mədəniyyətində fərqli hadisədir. Hüseyn Cavid romantik faciə teatrını, Cəfər Cabbarlı realist dram teatrı, Səməd Vurğun realist-romantik mənzum teatrı yaratdığı kimi, İlyas Əfəndiyev də lirik-psixoloji dram ənənəsini səhnəyə gətirmiş və uzun illər yaşatmışdır. İlyas Əfəndiyevin dram əsərlərinin səhnə təcəssümü əsasında yeni nəsil aktyorlar formalaşmışdır. İstedadlı rejissorlar Tofiq Kazımov və Mərahim Fərzəlibəyli ilə görkəmli yazıçının baş tutmuş dialoqu Azərbaycanda İlyas Əfəndiyev teatrının formalaşması və inkişafında mühüm rol oynamışdır. Cəfər Cabbarlı kimi, İlyas Əfəndiyevin səhnə qəhrəmanları, yaratdığı dramaturji obrazlar da tamaşaçılar tərəfindən sevilmiş, atalar övladlarına onların adlarını vermişlər.

İlyas Əfəndiyevin tarixi mövzuda yazılmış əsərlərində də tarixi hadisələr və şəxsiyyətlər müasirliyin bədii ifadəsinə xidmət etmək funksiyasını həyata keçirir. Ədibin tarixi mövzulara və müasir problemlərə həsr olunmuş əsərləri yeni insanı və yeni zamanı hazırlamağa xidmət etmişdir. Yazıçının "Xurşudbanu Natəvan", "Şeyx Məhəmməd Xiyabani" kimi dram əsərləri milli-azadlıq hərəkatına həsr olunmuş qiymətli və ibrətamiz sənət əsərləridir. Ədəbi-tarixi mövzuda yazılmış əsərlərində müasir dövrün ən mühüm çağırışları vardır. Tarixi mövzularda yazılmış bu əsərlərin səhnə təcəssümü tamaşaçıların dövlət müstəqilliyi ideallarına hazırlanmasına öz təsirini göstərmişdir. İlyas Əfəndiyevin 1978-ci ildə oynanılmış "Xurşudbanu Natəvan" tamaşasında teatr səhnəsindən səsləndirilən aşağıdakı müraciət yazıçının tarixi şəxsiyyətlərin dili ilə milli istiqlal ideyalarını canlandırdığını nümayiş etdirir: "Gedin kəndlilərə deyin ki, mən, Xurşudbanu Natəvan bu əzablı yolları onlarla birlikdə gedəcə-

[4] Cəfər Cəfərov. Təklik faciədir. Bax: Əsərləri, 2 cilddə, I c, Bakı, 1968, s.339

yəm. Onu da deyin ki, bu uçurumlu yolların sonunda bizi öz milli birliyini, azadlığını tapmış Azad Azərbaycan gözləyir".

Bu, sovet hakimiyyətinin sərt ideoloji rejimi mühitində Azərbaycan ədəbiyyatında diqqətə çatdırılan ilk "Azad Azərbaycan" ifadəsidir. İlyas Əfəndiyevin insanın mənəvi azadlığı haqqında yazdığı əsərlər nəticə etibarilə mənsub olduğu xalqın milli azadlığına çağırışın əks-sədası idi.

Azərbaycan ədəbiyyatı miqyasında geriyə baxanda da, irəliyə nəzər salanda da xalq yazıçısı İlyas Əfəndiyevin simasında bizim çətin, qəribə və şərəfli taleyimizin unudulmaz, ibrətamiz anlarını və işıqlı sabahlarını görmək mümkündür. Yazıçı "Kənddən məktublar"la başlanan, "Söyüdlü arx"lardan, "Aydınlıq gecələr" dən keçən, "Bahar suları" ilə durulan həyatın reallıqlarını özünəməxsus romantikası ilə birlikdə canlı və təsirli şəkildə təqdim edir. "Sarıköynəklə Valehin nağılı" romanı bütövlükdə İlyas Əfəndiyev nəsrinin nağılıdır. İlyas Əfəndiyevin dram və nəsr əsərləri təhkiyəsi və mahiyyəti etibarilə Azərbaycan ədəbiyyatının da özünəməxsus nağılı sayılmağa layiqdir. Bu mənada "Mənim qəribə taleyim" pyesi də İlyas Əfəndiyevin qiymətli və mənalı bir dram əsərinin adı olmaqla bərabər, həm də yazıçı və zaman münasibətlərində sənətkarın özünün də xoşbəxt taleyini əks etdirir.

Xalq yazıçısı İlyas Əfəndiyevin həyatın gerçəklikləri və təhkiyənin fərqli nağılı üstündə qurulmuş ölməz əsərləri yazıldığı dövrün sədlərini açmış, uzun ömürlü bir müasirlik haqqı qazanmışdır. Akademik Məmməd Cəfər Cəfərovun yazdığı kimi, "İlyas Əfəndiyev gələcək nəsillərin də sevə-sevə oxuyacağı uzunömürlü əsərlərin yaradıcısı"[5] kimi Azərbaycan ədəbiyyatına öz möhürünü vurmuşdur. Azərbaycan Yazıçılar İttifaqına 1940-cı ildə üzv seçilən İlyas Əfəndiyev 1979-cu ildə Xalq yazıçısı fəxri adına layiq görülmüşdür. Görkəmli yazıçının xidmətləri yüksək qiymətləndirilmişdir. O, Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə "Şərəf nişanı" (1949), "Qırmızı əmək bayrağı" (1971), "Oktyabr inqilabı" (1974), "Lenin" (1984) və "Şöhrət" (1994) ordenləri ilə təltif olunmuşdur. O, "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. Xalq yazıçısı İlyas Əfəndiyev Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı olmuşdur.

Görkəmli yazıçı İlyas Əfəndiyevin əsərləri səhnədə də, həyatda da yaşayır. YUNESKO-nun sabiq Baş direktoru İrina Bokovanın 19 may 2014-cü il tarixdə xalq yazıçısı İlyas Əfəndiyevin anadan olmasının Parisdə keçirilmiş 100 illik

[5] Məmməd Cəfər Cəfərov. "İntizar" tamaşası haqqında. Bax: Sənət yollarında, Bakı, 1975, s.316

yubileyində bildirdiyi kimi, görkəmli yazıçının əsərləri "Azərbaycan cəmiyyətinin ilham mənbəyidir."[6] Bu zəngin ədəbi irs müstəqillik dövrünün həyati proseslərinin inkişafında və yeni epoxada insanının mənəvi aləminin daha da zənginləşdirilməsində də mühüm rol oynayır, öz sözünü deyir. Bu mənada "Geriyə baxma, qoca" romanı İlyas Əfəndiyevin əsərlərinin müasirlik ruhunu əks etdirdiyi kimi xalq yazıçısının xalqına, torpağına, ölkəsinə, ümummilli ideyalarına dərin bağlılığını bütün reallığı ilə əks etdirir. Bu baxımdan İlyas Əfəndiyevin sənət ideyaları Azərbaycan xalqının həyat və mübarizə ideyalarının bədii ifadəsi kimi səslənir. Beləliklə, xalq yazıçısı İlyas Əfəndiyevin xalqımızın ümummilli ideyaları üstündə köklənmiş əsərləri sönməz ədəbi-estetik ruhu ilə hazırkı tarixi inkişaf mərhələsində də oxucuları mənəvi təkamülə inkişafa və yeniləşməyə çağırmaqda davam edir. Bu isə İlyas Əfəndiyevin sadəcə fəxri adında deyil, şəxsiyyəti və sənətindəki idealları ilə də əsil xalq yazıçısı olduğunu isbat edir.

15.02.2024

[6] İlyas Əfəndiyev. Ömür davam edir. Bakı, "Təhsil", 2014, səh. 595

## İlyas Əfəndiyev düşüncələrindən sətirlər

*Keçmiş mənim üçün bəyiylə-xanıyla, kəndlisiylə-fəhləsiylə, qaçaq-qulduruyla birlikdə keçmişdir, başqa sözlə desək, ulularımızın, babalarımızın, nənələrimizin namusla yaşadıqları ömürdü.*

*Hər hansı bir əsərdə qoyulan əhvalat müəllifin özünü dərindən mütəəssir etmirsə, sarsıtmırsa, başqalarına da təsir eliyə bilməz.*

*Gərək sənətkar, istəyir yazıçı olsun, istəyir rəssam olsun, istəyirsə də musiqiçi olsun, gərək insan təbiətinin ən gizli qatlarında olan həqiqəti, onun dünyaya münasibətini, bütün əlamətlərini, bütün, demək, faciəsini, sevincini – bax, bunu ortaya çıxara bilsin; çıxara bilirsə, bu, deməli, yazır, yaza bilir, sənətkardır, çıxara bilmirsə sənətkar deyil.*

*Həqiqi sənət üçün mövzu məhdudluğu yoxdur.*

*Teatr həmişə mənəvi yüksəliş aynası olmuşdur.*

*Əgər kiçik lirik şeir həqiqi sənət əsəridirsə, o heç zaman ictimai fikirdən kənar qala bilməz.*

*Əsrlərin sınağından çıxmış lirika həqiqi sənətin qanadıdır, ruhudur.*

*Əgər sən istedadlısansa, amma zəif, ortabab əsər yazmısansa, tarix, zaman, gələcək nəsillər səni bilərlər. Lakin sən xalqın sənətkarı olmaq iddiasındasansa, yalan yazırsansa taledən möcüzə, imdad gözləmə.*

*Əgər əsər qurudursa, oxucuda heç bir emosianal təsir oyatmırsa, demək əsər deyil və bu barədə danışmağa dəyməz.*

*Tam inkişaf etdikdə insan təbiətə yaxınlaşır, onun sirlərinə daha dərindən valeh olmağa başlayır, özünü və özü ilə bağlı olan cəmiyyəti daha dərindən dərk edir.*

*Bizim baş mövzumuz insanın gələcək uğrunda fəaliyyətidir.*

*Anlaşılmayan, izah edilə bilməyən novatorluq yoxdur. Yalançı novatorluq istedadsızlıq əlamətidir.*

*Xalqın ümumi idealı ilə bağlı olan, onun həyatına işıq saçan hər bir yazı tərzi, hər bir janr xeyirlidir.*

*Yazıçının hər şeydən əvvəl, istedadı olmalıdır, bu bir; yüksək savadı olmalıdır – yəni dünya ədəbiyyatının ən yaxşı nümunələrinə bələd olmalıdır, daha dəqiq desək, yazdığından çox mütaliə etməlidir, bu iki; böyük mədəniyyəti olmalıdır, bu da üç.*

*Həqiqi sənətkar səmimi olmaya bilməz.*

*Bədii dil yazıçı istedadının aynasıdır.*

*Sənətdə istedad – yalnız insana, heyvana, bitkiyə deyil, daşa, torpağa, qumlu çöllərə, okeanı yerindən oynadan fırtınalara da can, ruh verməkdir.*

*Vicdan rahatlığı hər şeydən gözəldir.*

*İstəksiz, məhəbbətsiz həyat gec-tez ikiüzlülüyə, saxtakarlığa, yalana çıxaracaq.*

*O evdə ki, səmimiyyət yoxdur, orada həyat yoxdur.*

*Vətən borcu, Vətən şərəfi o qədər böyük, o qədər müqəddəs bir hisdir ki, ona əmr etmək olmaz.*

*Bəşəriyyətin tarixi təkrar-təkrar göstərir ki, xalqı və onun azadlığını öldürmək, məhv etmək olmaz.*

*İstər elmdə, istərsə də sənətdə irəliyə, yüksəlişə doğru yolu həmişə böyük istedadlar açmışlar.*

*Tənqidçı həqiqi sənətkarı onun özündən də dərin duyub dərk etməlidir. Onu kəşf etməlidir (əgər yazıçı bu kəşfə layiqdirsə).*

*Hansı formada yazırsansa yaz, lakin sənətkarlıqla, ürəklə yaz. Həyatı, onun doğurduğu psixologiyanı duyaraq, onun dərinliklərinə nüfuz edərək yaz.*

*Həqiqi sənətkarın qarşısında onun mənsub olduğu xalqın həyatı bir dərya kimi dayanmışdır.*

*Vətən məni köməyə çağırır. Mən onun övladıyam. Mən onun çağırışına çatmasam cəhənnəmlərə məhkum bədnam bir məxluq olaram.*

*Əgər yeddi canım olsaydı onun yeddisini də Vətənə qurban verib məhəbbətimdən keçməzdim. Lakin böyük yaradan bizə bir can verib.*

*Dünyada böyük ədəbiyyatlar da, böyük sənətkarlar da çoxdur. Lakin hər bir həqiqi sənətkarı yaşadan, birinci növbədə onun əsərləri və xalqıdır.*

*Sənətdə qəlbin, ürəyin odu sənətkarın istedadıdır, qəlbləri riqqətə gətirən, ya qəzəbləndirən də bu əsrarəngiz qüvvədir.*

*Azərbaycan xalqı nəcib olduğu qədər də istedadlıdır, cəsurdur, mərddir.*

*Öz Vətəninin keçmişini, indisini bilməyən, sevməyən adam ləyaqətli, bütöv insan ola bilməz.*

*Sənətdə dahiliyin birinci sirri səmimiyyətin, ağıl və ehtirasın dərinliyində, idealın humanist mahiyyətindədir.*

*Həqiqi gözəllik üçün vicdan rahatlığı, vicdan saflığı lazımdır. Gözəllik həyatın ahəngidir, o saxtakarlıqla uyuşa bilməz.*

*Müasir mövzu həqiqi, canlı, dolğun həyat deməkdir. Müasir mövzu müasir istedadlar deməkdir.*

*Məsələ əsərin həcmində deyil, onun bədii dəyərində, ictimai mənasındadır.*

*Azərbaycan ədəbiyyatı – tarixi, kökü olan bir ədəbiyyatdır. Bayağı ədəbiyyat isə zamanın hökmü ilə ölümə məhkum olur, yəni o ötəridir, əbədi deyil.*

*Müəllif öz adına və oxucuya hörmət etməlidir.*

*Bədii formaları əbədi, sabit meyarlar kimi qəbul etmək olmaz.*

H*ər bir sənətkar üçün mütaliə, müasir elmlərə, dünya ədə- biyyatına bələd olmaq, onun istedadı qədər vacib və zəruridir.*

*Müasirlik sənətin mayasıdır.*

*Keçilmiş yollardan keçənlərin izi çətin seçilər və tezliklə silinib gedər.*

*Dahi sənətkarların həqiqi varisi xalqdır.*

*Yazıçılıqda novatorluq, yeni yazı manerası və başqa cəhətlərlə bərabər, eyni zamanda yeni insan xarakterləri kəşf etmək deməkdir.*

*Öz xalqının ruhunu ifadə etməyən əsər başqa xalqlara da təsir edə bilməz.*

**Şirindil Alışanlı**
*Professor, filologiya elmləri doktoru*

## Sənətkarın yaşamaq haqqı

XX əsr ədəbi-nəzəri fikrində formalaşmış – "İlyas Əfəndiyev bədii fikir tariximizdə fenomendir" – qənaəti son iyirmi ilin siyasi, ədəbi-mədni, nəzəri-metodoloji reallıqlarının şərtləndirdiyi müstəvidə yeni, görünməyən çalarları ilə dövriyyəyə gəlir. XX əsrin klassiki XXI əsrin ideya-estetik meyarları ilə üz-üzə dayanır, tarixi bədii yaddaş yeni ədəbi meyar, yeni zövq və dünyagörüşün sınağına çəkilir. XX əsrin klassiki İlyas Əfəndiyev XXI əsrin müxtəlif düşüncəli və zövqlü oxucusu ilə həmsöhbətdir. Çünki onun qəhrəmanlarını düşündürən məsələlər bütün qərinələr şəxsiyyətin axtarıb aradığı mənəvi problemlərdir. Həqiqi sənətin müasirliyi dar zaman çərçivəsi hüdudlarında mövcud deyil. Tarixi ədəbi proses bu məqamda çağdaş nəzəri fikrə öz təhlil və qiymətləndirmə prinsiplərini, ideya-bədii meyarlarını müəyyən etməkdə yardımçı olur.

Ədəbi-nəzəri fikrin yaddaşına nəzər yetirdikdə İlyas Əfəndiyev fenomenini müəyyən edən və yekdil qəbul edilmiş estetik amillər bunlardır: ədəbiyyatımızda lirik-psixoloji üslubun yaradıcılarından biri, ədəbiyyatımızda yeni obrazlar, xüsus ən qadın obrazlarının mahir yaradıcısı, dramaturgiya və teatr tariximizdə "İlyas Əfəndiyev" teatrının banisi. Nəhayət, nəsr dilində yeni poetik sistemin müəllifi. M.F.Axundov, M.Cəlil, Ə.Haqverdiyev sənətindən sonra İlyas Əfəndiyevin hekayə və romanları ilə Azərbaycan nəsr dilinin yeni bir istiqaməti formalaşdı. Səməd Vurğunun poetik dilə gətirdiyi dərin xəlqi tutumu, dilin milli yaddaşın daşıyıcısı kimi missiyasını İlyas Əfəndiyev nəsrdə reallaşdırdı. İlyas Əfəndiyev yaradıcılığının bütün istiqamətləri 1950-1990-cı illər ümumittifaq ədəbi prosesində gedən daxili inkişaf prosesini özündə təcəssüm etdirdi. Hətta, deyərdim ki, 50-ci illərin ikinci yarısında cəmiyyətdə baş verən "mülayimləşmə" amilini İlyas Əfəndiyev sənət fəhmi ilə qabaqlamışdı. Bu, yazıçı fərdiyyətindən, psixologiyasından irəli gəlirdi və İlyas Əfəndiyev ilk əsərləri, ilk qəhrəmanları ilə bədii fikrin yaradıcılıq sıxıntısı keçirdiyini biruzə verirdi.

XX əsr (sovet dövrü) ədəbiyyatının nüfuzlu tədqiqatçıları 50-ci illərin ikinci yarısından ədəbi fikird ə gedən yeniləşməni, ilk növbə də şəxsiyyət konsepsiyası ilə bağlayırlar. Çünki, şəxsiyyət konsepsiyası özündə sosial, siyasi və ideoloji fonu əks etdirir. Bu öz növbəsind əbədii əsərin poetik quruluşuna, yazıçı üslubuna təsir edir, onun qəhrəman və xarakterlərinin səciyyəsini təyin edir. Təsadüfi deyil ki, şəxsiyyət konsepsiyası incəsənətdə bədii cərəyanın invariantı hesab olunur. İlyas Əfəndiyevin ədəbi irsi bu gün də ona görə yaşarlıdır ki, o ilk hekayələrind ən son xatirə romanlarına qədər keçdiyi böyük yaradıcılıq axtarışlarında öz qəhrəmanlarının mənəvi təkamülünün elə məqamlarını ümumiləşdirib ki, bunlar şəxsiyyətlə cəmiyyət arasındakı münasibətlərin aparıcı cəhətlərini ehtiva edir. İlyas Əfəndiyevin ədəbi-estetik fikirdə qəbul edilmiş lirik-psixoloji üslubunu da müəyyən edən belə sənət prinsipləri idi. Bu gün cəsarətlə demək olar ki, İlyas Əfəndiyevin fərdi lirik-psixoloji üslubu, ümumən, XX əsr ədəbiyyatımızın (sovet dövrü) bədii-estetik məzmun yönümünə böyük təkan verdi. 30-40-cı illər ədəbi prosesində mövcud olan ritorika, sosial-ictimai əsası olmayan pafos ədəbiyyata öz ali missiyasını icra etməyə mane olurdu. Belə bir məqamda İlyas Əfəndiyevin hekayələri ədəbi aləmə yenilik gətirdi. Həyata, gerçəkliyə bədii münasib ətdə fərdin mənəvi obrazı aparıcı oldu. Bu, hekayə janrının poetik strukturuna orijinal bir tutum verdi. Belə yeniliyin zəminində hadisələrin, münasibətlərin zahiri, ritorik təsviri əvəzində yazıçı "mən"i, onun obrazlarda reallaşan düşüncə və iztirabları önə keçdi. "Kənddən məktublar" adlı ilk hekayələr kitabı ədəbi prosesdə yazıçının orijinal, fərdi ifadə tərzinin göstəricisi oldu, daha sonra "Aydınlıq gecələr"lə İlyas Əfəndiyevin ədəbi-estetik manifestinin əsası qoyuldu.

İlyas Əfəndiyev ədəbiyyata hekayə janrı ilə gəlmişdir və bu janr onun yaradıcılığının mühüm bədii-estetik dəyərlərini özündə ehtiva edir. 1939-cu ildə qələmə alınmış "Gözlənilməyən sevgi" hekayəsində ədəbiyyata yeni gəlmiş yazıçını fərqləndirən sənət sirləri nə idi? Yazıçı təhkiyəsindəki poetik intonasiya, dilin şəhdişirəsinə bələdlik, obrazın yaşadığı psixoloji gərginliyi ifadə istedadı?! Daha nə? İlk növbədə onun yeni obraz və qəhrəmanları sənətin qəribsədiyi, insan qəlbinə, duyğusuna məlhəm bir dillə danışırdılar: "Gülara bir istehzalı gurultunu hiss etməyirmiş kimi qəribə bir təbəssümlə Həsənə baxırdı. Heç bir zaman xatırımdan çıxmayacaq bu baxış o qədər dərin mənalar, şəfqətli, incə duyğular söyləyirdi ki, onları sözlə anlatmaq deyil, hiss etmək lazımdı. Mən gözəl qızın bu həzin və incə təbəssümündə, yaşla dolmuş gözlərində birinci dəfə olaraq, qüruru qırılmış, bakirə bir qız könlünün pərişan, əzgin həyəcanını duydum".

Adətən böyük şairlərin ilk şeirlərinin sənətkarlığı ilə yaradıcılığının sonrakı mərhələləri arasında "çin səddi" olmur və adətən deyirlər ki, filankəs ilk şeirlərindən şair idi. İlyas Əfəndiyev də ilk hekayələrindən ədəbiyyata püxtə bir yazıçı kimi gəlmişdi. Şübhəsiz, illər keçdikcə insan psixologiyasının daha dərin qatlarına nüfuz etməkdə bədii istedadla həyat təcrübəsi birləşirdi. "Qarımış oğlan", "Uxajor", "Durna", "Qoca tarını çaldı", "Su dəyirmanı", "Daş hasar", "Qırçı və qırmızı çiçək" hekayələri müxtəlif zamanlarda yazılmışdır. Lakin bu zaman gedişatında müəllifin hekayə qəhrəmanlarının daxili aləmi gərgin psixoloji ovqat yaradan situasiyalarda açılır. Bu hekayələrdə yazıçı müşahidəsi ilə mütaliə yaddaşı həmahəngdir. "Qarımış oğlan" hekayəsinin qəhrəmanı Vəlinin xarakterini yazıçı təbiətdə müşahidə etdiyi, kədər, sonsuzluq, mənəvi puçluq ovqatı yaradan aşağıdakı lövhədə ifadə edir: "Belə insanlara adamın nə qədər yazığı gəlir... Meyvə ağaclarında heç xöşək görmüsünüzmü? Vaxtından əvvəl şişir, başqa meyvələr boy atdıqca, onlar saralır,... saplaqları quruyur. Nəhayət, qopub düşürlər... Onları nə insan yeyir, nə də torpaq qəbul edir... insanların da belə xöşəyi olur".

İlyas Əfəndiyev sənətinin poetik fərdiliyinin, onun bədii təfəkkürünə hakim olan estetik prinsiplərin təzahürünü onun hələ 1948-ci ildə qələmə aldığı "Xəncər" hekayəsində görürük. Cənubi Azərbaycanda Milli azadlıq hərəkatı haqqında əksər yazıçılarımız müxtəlif janrlarda əsərlər yazmışlar. Bu hekayə də dediyimiz mövzuya həsr edilmişdir. Vətənpərvər gənc müəllimə Südabə və onun şagirdi İldırımın taleyi fonunda yazıçı böyük bir hərəkatın milli-siyasi mahiyyətini verə bilir. "Xəncər" hekayəsində xəncər simvoldur. Yeniyetmə İldırımın atasından yadigar qalan, onda cəsarət, mərdlik hissi aşılayan xəncər son məqamda fars cəlladının xirtdəyinə sancılır. Yazıçı Milli hərəkatın məğlubiyyətinə göz yaşı axıtmır, əksinə bu yolda qalib çıxmağın yolunu xəncərdə görür.

İlyas Əfəndiyevin hekayələrində M.Lermantovun məşhur sözləri ilə desək "xalqın tarixi qədər zəngin olan qəlbin tarixi"ndən danışılır. Daxili bütövlük, mənəvi zənginlik zahiri çirkinliyə qalib gəlir. "Gözlənilməyən sevgi"nin gözlənilənliyini yazıçı ustalıqla, açıq mövqe bildirmədən təsvir edir. Klassik ənənələri olan bu motivi gənc yazıçı ustalıqla qələmə alır, saf insani hisslərin əbədiliyinə inandırır. Unudulmaz tənqidçimiz Y.Qarayev haqlı olaraq yazırdı: "Bütünlükdə bu yaradıcılıqda məhz lirik psixologizmdən qiymətli sərvət, sevgidən və ürəkdən böyük mənəvi dəyər yoxdur". İlyas Əfəndiyev hekayələrində silsilə qadın obrazları yaratmışdır. Gülara, Durna, Güllər, Gülacar, Bəyim, Südabə, Firəngiz kimi obrazlar yazıçının roman və dram qəhrəmanları

qədər məşhur olmasalar da, hər biri öz taleyi, fərdi mənəvi düşüncə və baxışları ilə yaddaqalan surətlərdir. Bu obrazların prototipləri 50-70-ci illərin adi adamları idi, lakin yazıçı bu adilərin bir-birinə bənzəməyən dünyalarını yaratmışdır. Bu adi qəhrəmanların bədii ifadəsi zamanı geniş, panoram təsvir və tərənnümündən həyatın adi, ilk baxışda çox empirik görünən məişət lövhələrinin, millitarixi məişət gerçəkliklərinin müxtəlif tərəflərinə geniş yer verilməsi müasir insani münasibətləri bütün mürəkkəbliyi və zənginliyi ilə göstərmək niyyətindən irəli gəlirdi. Nəzəri fikirdə "adi adamlar", "adi" və "böyük" ədəbiyyat ətrafındakı mübahisələr 60-70-ci illərdə meydana çıxmış hadisə deyildi. Hələ 40-cı illərdə ədəbiyyatı "adi" və "böyük" ədəbiyyat deyə iki yerə bölənlərə qarşı çıxış edən Səməd Vurğun yazırdı: "Mənim nəzərimdə kiçik insan yoxdur, yalnız kiçik sənətkarlar vardır. Adi dəmir yolu fəhləsini, sürücüsünü və ya kənd müəllimini bütöv, müəyyən zəngin bir şəxsiyyət kimi bizə sevdirən, bədii fikrin müasir həyata, xalqın keçmişinə, onun mənəvi varlığına məhəbbətlə yanaşması, hər şeyi insan ləyaqətini, onun mənlik və qeyrətini ucaltmaq üçün səfərbər etməsindədir". Səməd Vurğun bu cür adi insanların təsvirində İlyas Əfəndiyevin də nəsrini misal gətirirdi.

İlyas Əfəndiyevin müraciət etdiyi bütün janrların baş qəhrəmanı yazıçı özüdür və bu hekayə, povest, roman və dramların cəmliyində reallaşan yazıçı üslubudur. İlyas Əfəndiyevin poetikasının tarixi təkamülü və yaradıcılıq metodu xüsusi tədqiqatın predmetidir. Bircə onu deməklə kifayətlənirik ki, İlyas Əfəndiyevin yaradıcılığında gerçəkliyin bədii dərki, bədii reallaşması dövrün hakim estetik prinsipləri çərçivəsinə sığmırdı. Ona görə də ədib yeni estetik hadisəni süni əxlaq kredosu ilə dəyərləndirirdi. İlyas Əfəndiyev öz müasirlərinin çoxundan fərqli olaraq ədəbiyyatımızda ziyalı mühitinə, ziyalı obrazlarına xüsusi yer verirdi. Bunlar onun real müasirlərinin obrazı idi. Lakin bu obrazlar cəmiyyətin üst qatında dəbdə deyildilər və yazıçı öz müasirlərindən daha zəngin mənəvi keyfiyyətlər umurdu. Bu keyfiyyətləri isə qəbul etməyə cəmiyyət bəzən hazır olmurdu. Təsadüfi deyil ki, İlyas Əfəndiyevin qəhrəmanları ədəbi aləmdə həmişə böyük əkssəda doğurmuş və kəskin mübahisələr predmetinə çevrilmişdir.

Elçin yazır ki, "İlyas Əfəndiyev heç bir nəsr əsərini səhnələşdirməmişdir və o, bunu, ümumiyyətlə, qəbul etmirdi, "Pyes lap başlanğıcdan səhnə üçün düşünülməli, səhnə üçün yazılmalıdır" – deyirdi. Bu fakta onu əlavə edərdik ki, İ.Əfəndiyevin hekayələrindəki dramatizmin, gözlənilməz bədii keçidlərin bolluğu, təhkiyədəki dialoqların tutumu dram yaradıcılığındakı qədər zəngin idi.

Xalqın tarixi taleyi baxımından ən mühüm siyasi və mənəvi dəyərlərin, hadisələrin, qələbə və faciələrin böyük vətəndaşlıq yanğısı ilə bədii təhlilini İlyas Əfəndiyevin müraciət etdiyi janrların hər birində görürük. Epik və dramatik növlərin daxili poetik gücünü eyni ustalıqla üzə çıxaran İlyas Əfəndiyev öz oxucusunu dinləməyə, xatırlamağa və düşünməyə vadar edir. "Geriyə baxma qoca", "Üçatılan", "Natəvan", "Hökmdar və qızı" kimi əsərləri yazıçının tarixi mövzunu işləməkdə əsas bədii-estetik məqsədini bəyan edir: xalq öz tarixi dəyərləri ilə güclü və yenilməzdir. Bu mənada İlyas Əfəndiyevin yaradıcılığı yeni dövr Azərbaycan tarixinin bədii salnaməsidir. Yaşar Qarayev İlyas Əfəndiyev haqqında böyük məhəbbət hissi ilə yazdığı kitabında obrazlı, lakin real bir sərrastlıqla yazırdı: "Qarabağın tarixi barədə klassik sənədlər – yeddi "Qarabağnamə" var. Bütünlüklə İlyas Əfəndiyev yaradıcılığını mən səkkizinci "Qarabağnamə" hesab edirəm".

İlyas Əfəndiyevin lirik-psixoloji üslubunun romantik çaları ona ədəbiyyatımızda yeni, bənzərsiz obrazlar yaratmağa imkan verdi. Bu baxımdan C.Cabbarlı və İlyas Əfəndiyevin obraz yaradıcılığı arasında güclü daxili əlaqə var. Bu iki böyük sənətkarın poetikasının müqayisəli təhlili ədəbi inkişafımızın bir çox estetik məqamlarını üzə çıxarmağa imkan verərdi. "Söyüdlü arx", "Körpüsalanlar", "Dağlar arxasında üç dost" əsərləri 50-ci illərdə mövcud olan bədii vərdiş və ədəbi-ictimai meyarlara "böyük zərbə" oldu. Bədii sözün estetik məna və məzmunu haqqında mövcud təsəvvürlər yeni istiqamət aldı. İ.Əfəndiyevin hekayələri bu janrın poetik imkanlarını dolğun əks etdirdiyi kimi, onun romanları da Azərbaycan roman tarixində yeni mərhələ idi. Bu mərhələni şərtləndirən, yazıçının fərdi bədii dünyagörüşü, onun reallaşdırdığı üslubla bağlı idi. İlyas Əfəndiyev üslubunun təkrarsızlığının, orijinallığının estetik qaynağını Y.Qarayev sərrast müəyyən edərək yazırdı: "Səməd Vurğunun ehtiraslı bədii romantikası, Sabit Rəhmanın bənzərsiz satirası və yumoru ilə yanaşı, İlyas Əfəndiyevin təkrarsız lirikası da son yarım əsrdəki Milli ədəbi hərəkatın üslub əlvanlığı və forma zənginliyini qabarıq şəkildə əks etdirir".

İstər tarixi mövzuların, istərsə də müasiri olduğu ictimai gedişatın mahiyyətinə varanda İlyas Əfəndiyevin rəhbər tutduğu estetik prinsip fərdi başlanğıca əsas yer verməsidir. Fərdin taleyini önə çəkməsi, bu fonda həyat hadisələrinin və tarixi gedişatın mahiyyətinə nüfuz etməsi İlyas Əfəndiyev sənətinin poetik sisteminin orijinallığını müəyyən edir. "Söyüdlü arx", "Körpüsalanlar", "Dağlar arxasında üç dost", "Sarıköynəklə Valehin nağılı", "Geriyə baxma qoca", "Üçatılan" kimi roman və povestlərini XX əsrin ədəbi tarixi tərəqqisində xüsusi rolu ilə yanaşı bu əsərləri bu gün sevdirən, yaşadan onların daşıdığı milliəxlaqi tutumdur.

İ.Əfəndiyevin roman qəhrəmanlarının təsvir olunduğu ictimai-sosial proseslər bu gün üçün yenilik və tərəqqinin tarixi bədii təsviri kimi yadda qalırsa, onun roman qəhrəmanları, onların mənəvi yaşantıları, iztirabları bu gün bizimlədirlər. Çünki onları düşündürən, yaşadan ağrılar, mübarizə və qələbələr şəxsiyyətin əbədi problemlərdir. Tarixin ədəbi proses təsdiq edir ki, şəxsiyyətin mənəvi tərəqqisinin göstəricisi olan yeni, ən çox inkar olunan, lakin əbədi müasirlik qazanan mənəvi sərvətdir. İlyas Əfəndiyevin romanlarının Nuriyyə, Səlimə, Səriyyə, Sarıköynək kimi obrazları şəxsiyyətin həyata fərdi düşüncə bucağından yanaşmasını, kütlə axını, kütlə psixologiyasına qarşı yeni əxlaqi dəyərləri ortaya qoymaları ilə seçilirlər. İlyas Əfəndiyev qəhrəmanlarının romantikası C.Cabbarlının romantikası ilə səsləşir. Mənəvi tərəqqi konkret zamana sığmır. İki klassikin qəhrəmanlarının ideallarındakı oxşarlıq da bununla şərtlənir.

İlyas Əfəndiyev öz romanları ilə Azərbaycan romanının poetikasını yersiz təsərrüfat ritorikasından uzaqlaşmağına təkan verdi. Süni potetikadan uzaq lirizm nağıl və folklor poetikasının elementləri İlyas Əfgəndiyevin digər romanları kimi "Sarıköynəklə Valehin nağılı" əsərində də obraz yaradıcılığının əsas elementləridir. İlyas Əfəndiyevin roman yaradıcılığı XX əsr nəsrinin parlaq səhifələrindəndir və cəmiyyətdə gedən mürəkkəb sosial-mənəvi mübarizələrin sanballı bədii səlnam əsidir.

Adətən 60-cılar deyəndə bu illərdə ədəbiyyata gəlmiş nəsli daha çox qabardırlar. Lakin İlyas Əfəndiyev, R.Rza, İ.Hüseynov kimi sənətkarlar 60-cı illərdə bərqərar olmuş ədəbi-estetik normaların yaradıcısı və iştirakçıları idilər. İlyas Əfəndiyev də teatrda görmək istədiyimiz insani duyğuları tamaşaçıya bəxş etdi. Bu əsərl ərin səhnə təc ssümündə 60-cı illərin tamaşaçısı ona mərhəm olan hissləri, həyatı, əxlaqi problemləri gördü.

İlyas Əfəndiyevin dramaturgiyasındakı şəxsiyyət və mühit, şəxsiyyət və iqtidar, fərdin taleyi, təkliyin sosial-fəlsəfi məzmunu kimi bəəri amillər bu gün də, sabah da aktual olaraq qalır. İlyas Əfəndiyevin ən böyük xidməti milli mənəvi tərəqqimizin konkret zaman çərçivəsində mənəvi problemləri yüksək sənət səviyyəsində bəxş etməsindədir.

Bu gün Azərbaycan dramaturgiyası və teatrı tarixində "İlyas Əfəndiyev məktəbi", "İlyas Əfəndiyev teatrı" hamının qəbul etdiyi tarixi bədii-estetik fakt və həqiqətdir. Azərbaycan teatrının tarixi barədə C.Cəfərovun sanballı tədqiqatının, Y.Qarayevin silsilə məqalələrinin əhəmiyyətini azaltmadan onu da qeyd etmək lazımdır ki, Azərbaycan dramaturgiyasının tarixi, o cümlədən İlyas Əfəndiyev teatrı barədə yeni tədqiqatlar haqqında düşünməyin vaxtı çatıb. İlyas

Əfəndiyevin dramaturgiyası Azərbaycan ədəbiyyatının poetik sistem, poetik kateqoriyalarının tədqiqi üçün misilsiz mənbədir.

"İlyas Əfəndiyev" teatrı eyni zamanda rejissorluq, rəssamlıq, aktyorluq, bəstəkarlıq sənətlərinin inkişafı deməkdir. 19 pyesinin səhnəyə qoyulduğu Milli Dram Teatrının müasir ədəbi-estetik reallıqlar müstəvisində yenidən İlyas Əfəndiyev sənətinə qayıdışı əslində teatrın bu sənətkara qaytaracağı mənəvi borcun bir hissəsidir.

İlyas Əfəndiyevin dramaturgiyaya gəlişi C.Cabbarlı və Səməd Vurğundan sonra bu sahədə nəzərə çarpan boşluğu doldurdu. Ədəbi-tarixi gedişatın dramaturgiya və teatr ünvanı İlyas Əfəndiyevin adı və imzası ilə bağlandı. Mübaliğəsiz demək olar ki, XX əsrin ikinci yarısı Azərbaycan teatrı "İlyas Əfəndiyev teatrı" kimi şərtləndi. "Sən həmişə mənimləsən", "Unuda bilmirəm", "Məhv olmuş gündəliklər", "Mahnı dağlarda qaldı", "Qəribə oğlan", "Billur sarayda" kimi əsərləri dramaturgiya və teatr tariximizdə bir era yaratdı. Bu əsərlərin qəhrəmanları yeni tarixi bir dövrün, XX əsrin 60-cı illərinin sosial-mənəvi konfliktlərini təmsil edirdilər. Bu əsərlərin mərkəzində dayanan konfliktlərdə müasirlik və yeniliyin qəlibləşmiş düşüncə və həyat tərzi ilə mübarizəsini əks etdirirdilər.

İlyas Əfəndiyev irsində onun ədəbiyyat haqqında bədii-fəlsəfi düşüncələrinin xüsusi yeri var. Yazıçının bədii konsepsiyasının mahiyyətini bütün incəliyi ilə açmaq üçün bu məqalələr onun araşdırıcılarına zəngin material verir. Xüsusən teatr və dramaturgiyanın estetik mahiyyəti, gizli, görünməz sənət normaları haqqında İlyas Əfəndiyevin konsepsiyası real təcrübədən, fərdi yaradıcılıq laboratoriyasından irəli gəlirdi.

Futuroloqlar gələcək haqqında proqnozlar verirlər. Bəzən yanlış, bəzən də reallığa yaxın. Gələcək üçün ən doğru mənbə milli bədii yaddaşdır, XX əsrin və ötən əsrlərin real bədii salnaməsi olan İlyas Əfəndiyev sənəti, onun yaşamaq, var olmaq qüdrətidir.

## İlyas Əfəndiyevin həyat və yaradıcılığının əsas tarixləri

*İlyas Məhəmməd oğlu Əfəndiyev 1914-cü il may ayının 26-da Qaryagin (indiki Füzuli) şəhərində anadan olmuşdur.*

**1930** – Orta məktəbi bitirdikdən sonra şəhər məktəbində və II dərəcəli partiya məktəbində dil və ədəbiyyatdan dərs demişdir.

**1933** – V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun ədəbiyyat fakültəsinin əyani şöbəsinə daxil olmuş, lakin ailəsinə qarşı siyasi-inzibati təqiblər nəticəsində təhsilini yarımçıq qoymağa məcbur olmuşdur. Sonra həmin institutun coğrafiya fakültəsinin qiyabi şöbəsinə daxil olaraq 1938-ci ildə oranı bitirmişdir.

**1938** – Noyabr ayında ilk mətbu əsəri ***"Buruqlar arasında"*** oçerki "Yeni yol" qəzetində dərc olunmuşdur;
– Bakıya gəlmiş, "Yeni yol", "Kommunist" və "Ədəbiyyat qəzeti" redaksiyalarında çalışmışdır;

**1939** – ***"Kənddən məktublar"*** adlı ilk kitabı "Azərnəşr" tərəfindən nəşr edilmişdir;
– Yanvar ayının 26-da ***"Berlində bir gecə"*** adlı ilk hekayəsi "Ədəbiyyat qəzeti"ndə çap olunmuşdur.

**1940** – Yanvar ayının 10-da Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edilmişdir.

**1941-1945** – Azərbaycan Radio Verilişləri Komitəsində Ədəbi verilişlər şöbəsinin müdiri işləmişdir.

**1943** – Öz hekayələri əsasında Mehdi Hüseynlə birlikdə ilk dram əsəri olan ***"İntizar"*** pyesini yazmışdır.

**1944** – Dekabr ayında ***"İntizar"*** pyesi M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur.

| | |
|---|---|
| **1945** | – Bakı kinostudiyasında Ssenari şöbəsinin rəisi, daha sonra isə "Azərnəşr"də Bədii ədəbiyyat şöbəsinin müdiri vəzifəsində çalışmışdır. |
| **1946** | – İlk müstəqil dram əsərini – ***"İşıqlı yollar"*** pyesini yazmışdır. |
| **1947** | – ***"İşıqlı yollar"*** əsəri M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur;<br>– M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrının Moskva qastrolu zamanı ***"İşıqlı yollar"*** əsəri tamaşaçıların böyük rəğbətini qazanmışdır. |
| **1948** | – ***"Bahar suları"*** əsəri M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur. |
| **1949** | – Səhnə sənətinin inkişafındakı xidmətlərinə görə ***"Şərəf nişanı"*** ordeni ilə təltif olunmuşdur. |
| **1951** | – Rus dilində ***"Rasskazı"*** ("Hekayələr") adlı ilk kitabı Bakıda nəşr olunmuşdur. |
| **1954** | – Yazıçılar İttifaqı Rəyasət Heyətinin üzvü olmuşdur;<br>– ***"Atayevlər ailəsi"*** pyesi M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur. |
| **1954-1958** | – Azərbaycan yazıçılarının II qurultayında (1954, aprel) ***"Azərbaycan sovet dramaturgiyası"***, III qurultayında (1958, dekabr) isə ***"Azərbaycan dramaturgiyasının inkişafı haqqında"*** mövzulu məruzələri ilə çıxış etmişdir. |
| **1958** | – ***"Söyüdlü arx"*** romanını yazmışdır. |
| **1960** | – ***"Körpüsalanlar"*** povestini qələmə almışdır;<br>– Azərbaycanın ***"Əməkdar incəsənət xadimi"*** fəxri adına layiq görülmüşdür. |
| **1963** | – ***"Dağlar arxasında üç dost"*** romanını yazmışdır. |

**1964** – Səhnələşdirilmiş ***"Sən həmişə mənimləsən"*** pyesi ilə Azərbaycan səhnəsində lirik-psixoloji dramın əsası qoyulmuşdur.

**1965** – İkicilddə ***"Seçilmiş əsərləri"*** "Azərnəşr"də çapdan çıxmışdır.

**1967** – ***"Mənim günahım"*** pyesini yazmış, əsər M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur.

**1968** – ***"Unuda bilmirəm"*** əsərinin ilk tamaşası olmuşdur. Əsər M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrında 424 dəfə tamaşaya qoyulmuşdur.

**1969** – ***"Məhv olmuş gündəliklər"*** pyesi tamaşaya qoyulmuşdur;
– "***Qırmızı Əmək Bayrağı"*** ordeni ilə təltif edilmişdir.

**1969-1973** – "Azərnəşr" tərəfindən yazıçının dörd cilddən ibarət ***"Seçilmiş əsərləri"*** kitabı oxuculara təqdim edilmişdir.

**1971** – Müasir mövzulara daha çox üstünlük verən yazıçı ilk dəfə tarixi mövzuda ***"Mahnı dağlarda qaldı"*** pyesini yazmış, elə həmin il əsər M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur.

**1972** – ***"Mahnı dağlarda qaldı"*** pyesinə görə Dövlət mükafatına layiq görülmüşdür.

**1973** – ***"Qəribə oğlan"*** pyesi çap olunmuş, əsər M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur.

**1974** – 60 illik yubileyilə əlaqədar ***"Oktyabr İnqilabı"*** ordeni ilə təltif olunmuşdur;
– ***"Söyüdlü arx"*** povest və hekayələr kitabı "Gənclik" nəşriyyatında çapdan çıxmışdır.

**1975** – ***"Bağlardan gələn səs"*** əsərini yazmış, əsər M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur.

**1976-1978** – ***"Sarıköynəklə Valehin nağılı"*** romanını yazmışdır.

**1979** – Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 30 iyul tarixli fərmanı ilə ***"Xalq yazıçısı"*** fəxri adına layiq görülmüşdür.

**1980** – ***"Geriyə baxma, qoca!"*** romanını qələmə almışdır.

**1981** – ***"Üçatılan"*** romanını yazmışdır;
– ***"Xurşidbanu Natəvan"*** əsəri M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur.

**1982** – ***"Üçatılan"*** romanı "Gənclik" nəşriyyatında çapdan çıxmışdır.

**1983** – ***"Büllur sarayda"*** pyesi M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur.

**1984** – Anadan olmasının 70 illiyi münasibətilə ***"Lenin ordeni"*** ilə təltif edilmişdir;
– Altıcilddə ***"Seçilmiş əsərləri"*** "Yazıçı" nəşriyyatında çapdan çıxmışdır.

**1986** – ***"Şeyx Xiyabani"*** əsəri M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur.

**1987** – ***"Üç roman"*** (Körpüsalanlar, Üçatılan, Geriyə baxma qoca) "Gənclik" nəşriyyatında çapdan çıxmışdır.

**1988** – ***"Bizim qəribə taleyimiz"*** pyesini yazmış, əsər M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur;

**1989** – ***"Bizim qəribə taleyimiz"*** pyesi "Yazıçı" nəşriyyatında çap edilmişdir;
– ***"Sevgililərin cəhənnəmdə vüsalı"*** pyesi Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur.

**1990** – İlk dəfə olaraq Azərbaycan Milli Dram Teatrının Türkiyəyə qastrol səfəri zamanı İstanbul və Ankara şəhərlərində yazıçının

***"Bizim qəribə taleyimiz"*** və ***"Sevgililərin cəhənnəmdə vüsalı"*** əsərlərinin tamaşası göstərilmişdir.

**1991** – ***"Tənha iydə ağacı"*** əsəri Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur.

**1992** – ***"Dəlilər və ağıllılar"*** əsəri Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur.

**1993** – ***"Qaçaq Süleymanın ölümü"*** povestini yazmışdır.

**1994** – Anadan olmasının 80 illiyi təntənə ilə qeyd edilmiş, o, sənət adamları arasında ilk dəfə respublikanın o zamankı ən yüksək ordeni olan ***"Şöhrət"*** ordeni ilə təltif edilmişdir;
– ***"Ceyran ovu"*** hekayələr kitabı "Gənclik" nəşriyyatında çapdan çıxmışdır.

**1996** – Son əsəri olan ***"Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı"*** povestini qələmə almışdır;
– Oktyabr ayının 3-də Bakı şəhərində vəfat etmiş, Birinci Fəxri Xiyabanda dəfn olunmuşdur;
– Noyabr ayının 17-də ***"Hökmdar və qızı"*** tamaşasının premyerası göstərilmişdir. Həmin vaxtdan etibarən Akademik Milli Dram Teatrı yeni mövsümü bu tamaşa ilə açmışdır.

**1997** – ***"Sən ey böyük yaradan!.."*** kitabı "Şərq-Qərb" nəşriyyatında çapdan çıxmışdır;
– Rəssam Tofiq Ağababayev yağlı boya ilə yazıçının portretini yaratmışdır.

**2001** – Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev yazıçının xatirəsinin əbədiləşdirilməsi haqqında Sərəncam imzalamışdır;
– Bakı şəhərindəki 41 saylı orta ümumtəhsil məktəbinə adı verilmişdir.

| | |
|---|---|
| **2002** | – "Çinar-Çap" nəşriyyatı yazıçının 7 cilddən ibarət ***"Seçilmiş əsərləri"ni*** Azərbaycan dilində, 2 cilddən ibarət "Seçilmiş əsərləri"ni isə rus dilində çap etmişdir;<br>– Elçinin tərtibatı və redaktorluğu ilə ***"Sənətkarın ikinci ömrü"*** (İlyas Əfəndiyev. Beş ilin salnaməsi) kitabı "Çinar-Çap" nəşriyyatında çap olunmuşdur. |
| **2003** | – Ədibin 1957-1979-cu illərdə yaşadığı binaya barelyefi həkk edilmişdir. |
| **2004** | – Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev İlyas Əfəndiyevinin 90 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır. |
| **2005** | – ***"Seçilmiş əsərləri"*** Elçinin tərtibatı və redaktorluğu ilə Azərbaycan ədəbiyyatı seriyası adı altında "Çaşıoğlu" nəşriyyatında çapdan çıxmışdır;<br>– ***"Seçilmiş əsərləri"*** 3 cilddə Elçinin tərtibatı və redaktorluğu ilə "Avrasiya Press" nəşriyyatında çap olunmuşdur;<br>– ***"İlyas Əfəndiyev Fondu"*** təsis edilmişdir. |
| **2006** | – ***"Yaddaşın boy çiçəyi. Unudulmaz Xalq yazıçısı İlyas Əfəndiyev xatirələrdə"*** kitabı İ.Qəhrəmanın tərtibatı ilə "Qərənfil" nəşriyyatında çapdan çıxmışdır;<br>– Oktyabr ayının 3-də Azərbaycan Milli Elmlər Akademiyasının iclas salonunda xatirəsinə həsr olunmuş elmi konfrans keçirilmişdir. |
| **2008** | – ***"Hökmdar və qızı"*** əsəri əsasında çəkilən ***"Hökmdarın taleyi"*** bədii filminin təqdimat mərasimi olmuşdur;<br>– Nizaməddin Şəmsizadənin yazdığı ***"Ədəbi proses və ədəbi nəsil*** (Xalq yazıçısı İlyas Əfəndiyevin nəslinin yaradıcılığı haqqında)" kitabı "Təhsil" nəşriyyatında çapdan çıxmışdır. |
| **2009** | – Türk tədqiqatçısı Sədat Adıgözəlin müəllifliyi ilə "Şərq-Qərb" nəşriyyatında çap olunan ***"İlyas Əfəndiyev. Zaman və sənətkar"*** |

adlı kitabda yazıçının yalnız nəsr əsərləri (roman, povest və hekayələri) təhlilə cəlb edilmişdir.

2010 – Günay Əfəndiyevanın tərtib etdiyi və redaktoru olduğu ***"İlyas Əfəndiyev. Şeirə sığmayan ömür"*** Azərbaycan yazıçılarının İlyas Əfəndiyevə həsr etdiyi şeirlər kitabı Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə "Təhsil" nəşriyyatında çap olunmuşdur.

2011 – Flora Namazovanın müəllifi olduğu ***"İlyas Əfəndiyev və lirik-psixoloji dram dili"*** kitabı "Elm və təhsil" nəşriyyatında çap olunmuşdur;

– ***"İlyas Əfəndiyev Fondu"*** Beynəlxalq qeyri-hökumət təşkilatı statusu almışdır.

2013 – ***"Seçilmiş əsərləri"*** Azərbaycan və rus dillərində Bakıda çapdan çıxmışdır;

– Vəfa Xanoğlanın müəllifi olduğu ***"İlyas Əfəndiyev və Azərbaycan mədəniyyəti"*** monoqrafiyası "Elm" nəşriyyatında çap olunmuşdur.

2014 – Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev İlyas Əfəndiyevinin 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır;

– Mart ayının 14-də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində 100 illiyinə həsr olunmuş ***"İlyas Əfəndiyev sənəti milli-mənəvi dəyərlərimizin güzgüsüdür"*** mövzusunda elmi-nəzəri konfrans keçirilmişdir;

– May ayının 19-da Azərbaycan Respublikasının UNESCO yanındakı daimi nümayəndəliyinin təşkilatçılığı və Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Parisdə, qurumun mənzil iqamətgahında 100 illiyinə həsr olunan təntənəli tədbir keçirilmişdir;

– Noyabr ayının 21-də Heydər Əliyev adına Sarayda Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə anadan olmasının 100 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir. Yubiley gecəsində Milli Kitabxana tərəfindən ***"İlyas Əfəndiyev-100"*** adlı kitab sərgisi təşkil olunmuşdur;

– Noyabr ayının 25-də Türkiyədə Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, TÜRKSOY və Azərbaycan Milli Kitabxanasının təşkilatçılığı ilə Türkiyə Milli Kitabxanasında 100 illik yubileyi qeyd olunmuşdur;
– Azərbaycan Milli Elmlər Akademiyasında Nizami adına Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə 100 illiyi münasibətilə elmi sessiya keçirilmişdir;
– Bakının Səbail rayonundakı 190 nömrəli orta məktəbdə 100 illik yubileyi qeyd edilmişdir;
– Dördcilddə ***"Seçilmiş əsərləri"*** Elçinin tərtibatı və redaktorluğu ilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə "Təhsil" nəşriyyatında çapdan çıxmışdır;
– Anadan olmasının 100 illik yubileyi münasibətilə Azərbaycan Milli Kitabxanası tərəfindən ***"İlyas Əfəndiyev"*** biblioqrafiyası "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından çap edilmişdir;
– F.Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən ***"Ədəbiyyatın əbədiyaşarlıq ünvanı"*** adlı metodik vəsait hazırlanaraq çap edilmişdir (tərt. ed. R.Məmmədli; ixt. red. və burax. məsul Ş.Qəmbərova);
– BDU-da anadan olmasının 100 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı keçirilmişdir;
– 100 illik yubileyi münasibətilə poçt markası dövriyyəyə buraxılmışdır;
– Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə haqqında ***"İlyas Əfəndiyev. Geriyə baxmağa dəyər"*** məqalələr, esselər, xatirələr kitabı və ***"İlyas Əfəndiyev. Ömür davam edir: İlyas Əfəndiyev haqqında xatirə kitabı"*** Elçinin tərtibçiliyi ilə "Təhsil" nəşriyyatında çapdan çıxmışdır;
– Azərbaycan Dillər Universitetində ***"İlyas Əfəndiyev yaradıcılığının bədii-estetik xüsusiyyətləri"*** mövzusunda seminar, ***"İlyas Əfəndiyevin dil və üslub xüsusiyyətləri"*** mövzusunda dəyirmi masa keçirilmişdir
– Ağcabədi Mərkəzi Kitabxanasında 100 illiyinə həsr olunmuş ***"İlyas Əfəndiyev XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsidir"*** adlı tədbir keçirilmişdir;

– Londonda rejissor Filiz Özcanın quruluş verdiyi ***"Sən həmişə mənimləsən"*** əsərinin Avropa premyerası keçirilmişdir;
– Ağdaş Mərkəzi kitabxanasında 100 illiyi qeyd olunmuşdur;
– Naxçıvan Dövlət Universitetində ***"İlyas Əfəndiyev – 100: İşıqlı sənət"*** mövzusunda elmi konfrans keçirilmişdir;
– Astara rayon Mərkəzi Kitabxanasında ədibə həsr olunmuş oxucu konfransı keçirilmişdir;
– Oğuz rayon Mərkəzi kitabxanasında 100 illik yubileyi münasibətilə ***"Sənətlə sehrlənmiş ədib"*** mövzusunda kitab bayramı keçirilmişdir;
– Dövlət Rus Dram Teatrında ***"Büllur sarayda"*** tamaşasının premyerası baş tutmuşdur;
– AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu tərəfindən ***"Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığı ədəbi tənqiddə"*** adlı yeni kitab işıq üzü görmüşdür;
– Akademik Dram Teatrında ***"Xurşudbanu Natəvan"*** əsəri səhnəyə qoyulmuşdur;
– Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Tədris teatrında ***"Boy çiçəyinin ətri"*** adlı tədbir keçirilmişdir;
– İrəvan Dövlət Dram Teatrında ***"Geriyə baxma, qoca!"*** romanı əsasında tamaşa səhnələşdirilmişdir;
– Nərimanov rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində 100 illik yubileyi münasibətilə tədbir keçirilmişdir;
– Dövlət Rus Dram Teatrında ***"Büllur sarayda"*** pyesi əsasında rejissor Aleksandr Şarovskinin quruluşunda hazırlanan tamaşa oynanılmışdır;
– Rejissor Vidadi Həsənovun quruluşunda ***"Keçmiş üçün "gecikmə": Yaxud "Unudulmaz Əfəndi"nin xatirə yükü"*** adlı səhnə əsəri hazırlanmışdır;
– Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında ***"Sarıköynəklə Valehin nağılı"na*** ictimai baxış keçirilmişdir;
– Beyləqan rayon Mədəniyyət sarayında Mədəniyyət və Turizm Şöbəsinin təşkilatçılığı ilə ***"Sən həmişə bizimləsən"*** adlı ədəbi-bədii gecə keçirilmişdir;
– Şəki Dövlət Dram Teatrında rejissor Mirbala Səlimlinin quruluşunda ***"Sevgililərin cəhənnəmdə vüsalı"*** yubiley tamaşası nümayiş etdirilmişdir.

**2017** – Anadan olmasının 100 illiyinə həsr olunmuş ***“XX əsr Azərbaycan ədəbiyyatı məsələləri”*** çoxcildliyinin IV kitabı “Elm” nəşriyyatında çapdan çıxmışdır;
– Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti təşəbbüsü ilə “Elm və təhsil” nəşriyyatında “İlyas Əfəndiyev – 100: Azərbaycanın Xalq yazıçısı, Respublika Dövlət mükafatı laureatı, görkəmli dramaturq İlyas Məhəmməd oğlu Əfəndiyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş Respublika Elmi Konfransının materialları” çapdan çıxmışdır.

**2018** – Anadan olmasının 100 illik yubileyi münasibətilə ***“İlyas Əfəndiyev 100”*** (məqalələr toplusu) “Elm” nəşriyyatında çap olunmuşdur. Məcmuədə yazıçının hekayə yaradıcılığının poetik təkamülü, romanlarının janr-üslub tipologiyası, dramaturgiyasında sosial mühit və kolliziya, ədəbi-tənqidi görüşləri tədqiq olunmuşdur.

**2019** – ***“Seçilmiş əsərləri***” “Kitab Klubu” nəşriyyatında çapdan çıxmışdır;
– ***“Söyüdlü arx”*** romanı “Qanun” nəşriyyatında “Azərbaycan klassikləri” seriyasından çap edilmişdir;
– Milli Kitabxanada ədibin 105 illiyinə həsr olunmuş tədbir və ***“İlyas Əfəndiyev – 105”*** adlı elektron məlumat bazasının təqdimatı keçirilmişdir.

**2020** – Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Xəzər rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 2 nömrəli filialı “Hər kitab bir dünyadır” layihəsi çərçivəsində ***“Dağlar arxasında üç dost”*** əsəri haqqında videoçarx hazırlamışdır.

**2021** – ***“Körpüsalanlar”*** romanı “Qanun” nəşriyyatında “Azərbaycan klassikləri” seriyasından çap olunmuşdur;
– Professor Kərim Tahirovun tərtib etdiyi ***“İlyas Əfəndiyev. Geriyə baxarkən”*** fotoalbomu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanasının birgə təşəbbüsü ilə “Şərq-Qərb” nəşriyyatında çapdan çıxmışdır.

**2022** – ***"Söyüdlü arx"*** romanı "Qanun", "Əli və Nino" nəşriyyatlarında "Azərbaycan klassikləri" seriyasından çap olunmuşdur;

– ***"Üçatılan romanı"*** "Altun" kitab nəşriyyatında "Azərbaycan ədəbiyyatından seçmələr" seriyasından nəşr olunmuşdur;

– Azərbaycan Dövlət Pedaqoji Universiteti tərəfindən Yeganə Qasımovanın müəllifi olduğu ***"Azərbaycan ədəbiyyatı tarixi: İlyas Əfəndiyevin bədii publisistikası"*** adlı dərs vəsaiti nəşr edilmişdir.

**2023** – ***"Üçatılan"*** romanı Nazim Tapdıqoğlunun tərtibatı və redaktorluğu ilə "İmza" nəşriyyatında çapdan çıxmışdır;

– ***"İlyas Əfəndiyev (Yaddaş kitabçası)"*** (tərt.: B.Ələsgərov, A.Koçak; ixt. red. K.Tahirov) Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanası tərəfindən çap olunmuşdur.

**2024** – Anadan olmasının 110 illiyi münasibətilə Azərbaycan Milli Kitabxanası tərəfindən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından ***"İlyas Əfəndiyev"*** biblioqrafiyası nəşr edilmişdir;

– Azərbaycan Milli Kitabxanası tərəfindən ***"Xalq yazıçısı İlyas Əfəndiyev"*** adlı elektron məlumat bazası hazırlanıb internet istifadəçilərinin ixtiyarına verilmişdir;

– Şəki Dövlət Dram Teatrında ***"Sən həmişə mənimləsən"*** pyesi tamaşaya hazırlanmışdır (quruluşçu rejissor Elvin Nuri);

– F.Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən ***"Şöhrəti xalq bağrından rişələnən ustad sənətkar – İlyas Əfəndiyev"*** adlı metodik vəsait hazırlanaraq çap edilmişdir.

– Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Teatr Xadimləri İttifaqının təşkilatçılığı ilə Bakı Bələdiyyə Teatrında (BBT) yazıçının 110 illiyinə və Xalq artisti Amaliya Pənahovanın xatirəsinə həsr edilmiş ***"Xan qızı"*** tamaşası nümayiş olunmuşdur.

.

## Основные даты жизни и творчества Ильяса Эфендиева

***Ильяс Мухаммед оглы Эфендиев*** *родился 26 мая 1914 года в городе Карягино (ныне Физули).*

**1930** – После окончания средней школы преподавал язык и литературу в городской школе и партийной школе II ступени.

**1933** – Поступил на очное отделение литературного факультета Азербайджанского педагогического института имени В.И.Ленина, но был вынужден прервать обучение в результате политико-административного преследования его семьи. Затем поступил на заочный географический факультет того же института и окончил его в 1938 году.

**1938** – Приехав в Баку, Ильяс Эфендиев работал в редакциях, газет «Ени йол» («Новый путь»), «Коммунист» и «Адабиййат газети» («Литературная газета»);
– Первое произведение в печати – очерк ***«Среди буровых скважин»***, был опубликован в газете «Ени йол» в ноябре.

**1939** – В издательстве «Азернешр» была опубликована первая книга писателя ***«Письма из деревни»***;
– 26 января в «Адабиййат газети» («Литературной газете») был опубликован его первый рассказ ***«Одна ночь в Берлине»***.

**1940** – 10 января был принят в Союз писателей Азербайджана.

**1941-1945** – Работал заведующим отделом литературных программ Азербайджанского Государственного Комитета Радиовещания.

**1943** – По мотивам собственных рассказов Ильяс Эфендиев вместе с Мехди Гусейном написал первое драматическое произведение – пьесу ***«Интизар»***.

**1944** – Пьеса ***«Интизар»*** в декабре была поставлена на сцене Азербайджанского государственного драматического театра имени М.Азизбекова.

**1945** – Работал заведующим сценарным отделом Бакинской киностудии, позже заведующим художественным отделом «Азернешра».

**1946** – Написал первое самостоятельное драматическое произведение – пьесу ***«Ишыглы йоллар»*** («Светлые пути»).

**1947** – Пьеса ***«Ишыглы йоллар»*** («Светлые пути») была поставлена на сцене Азербайджанского государственного драматического театра имени М.Азизбекова;
– Во время гастролей Азербайджанского государственного драматического театра имени М.Азизбекова в Москве спектакль ***«Ишыглы йоллар»*** («Светлые пути») вызвал неподдельный зрительский восторг.

**1948** – Произведение ***«Вешние воды»*** было поставлено на сцене Азербайджанского государственного драматического театра имени М.Азизбекова.

**1949** – В рамках празднования 75-летия Азербайджанского государственного драматического театра был награжден Орденом Почета за заслуги в развитии сценического искусства.

**1951** – В Баку под названием ***«Рассказы»*** была издана первая книга Ильяса Эфендиева на русском языке.

**1954** – Стал членом президиума Союза писателей Азербайджанской ССР;

– Спектакль ***«Семья Атаевых»*** был поставлен в Азербайджанском Государственном Драматическом Театре имени М.Азизбекова.

**1954-1958** – На II съезде азербайджанских писателей (1954, апрель) выступил с докладом на тему: ***«Азербайджанская советская драматургия»***, а на III съезде (1958, декабрь) с докладом на тему: ***«О развитии азербайджанской драматургии».***

**1958** – Написал роман ***«Ивы над арыком»***.

**1960** – Написал повесть ***«Кизиловый мост»***;
– Был удостоен почетного звания ***«Заслуженный деятель искусств Азербайджана»***.

**1963** – Написал роман ***«Три друга за горами»***.

**1964** – Постановкой спектакля ***«Ты всегда со мной»*** были заложены основы лирико-психологической драматургии на сцене Азербайджана.

**1965** – В издательстве «Азернешр» были опубликованы ***«Избранные произведения»*** в двух томах.

**1967** – Написал пьесу ***«Моя вина»***, которая была поставлена на сцене Азербайджанского государственного драматического театра имени М.Азизбекова.

**1968** – Состоялась премьера спектакля ***«Не могу забыть»***. Пьеса выдержала 424 постановки в Азербайджанском государственном академическом драматическом театре имени М.Азизбекова.

**1969** – Поставлен спектакль по пьесе ***«Уничтоженные дневники»***;
– Был награжден орденом Трудового Красного Знамени.

**1969-1973** – Вниманию читателей было представлено четырехтомное издание ***«Избранных произведений»,*** опубликованное в издательстве «Азернешр».

**1971** – Писатель, предпочитающий современные актуальные темы, впервые обратился к историческому прошлому и написал пьесу ***«Песня осталась в горах»***. В этом же году произведение было поставлено на сцене Азербайджанского государственного драматического театра имени М.Азизбекова;

**1972** – Был удостоен Государственной премии за пьесу ***«Песня осталась в горах»***.

**1973** – Была издана и поставлена на сцене Азербайджанского государственного драматического театра пьеса ***«Странный парень»***.

**1974** – В связи с юбилеем писатель был награжден орденом ***«Октябрьской революции»***;
– В издательстве «Гянджлик» была опубликована книга повестей и рассказов ***«Ивы над арыком»***.

**1975** – Написал пьесу ***«Голоса, доносящиеся из садов»***, которая была поставлена на сцене Азербайджанского государственного драматического театра имени М.Азизбекова.

**1976-1978** – Написал ***«Повесть о Сарыкойнек и Валехе»***.

**1979** – Указом Президиума Верховного Совета Азербайджанской ССР от 30 июля Ильясу Эфендиеву было присвоено почетное звание ***«Народный писатель Азербайджана»***.

**1980** – Написал роман ***«Не оглянись назад, старик!»***.

**1981** – Написал роман ***«Трехзарядная винтовка»***;

– Пьеса ***«Хуршудбану Натаван»*** была поставлена на сцене Азербайджанского государственного драматического театра имени М.Азизбекова.

**1982** – Роман ***«Трехзарядная винтовка»*** был опубликован в издательстве «Гянджлик».

**1983** – Был поставлен спектакль по пьесе ***«В хрустальном дворце»***.

**1984** – Был награжден орденом Ленина в связи с 70-летием со дня рождения;
– В издательстве «Язычы» был опубликован шеститомник ***«Избранных произведений»*** писателя.

**1986** – Пьеса ***«Шейх Хиябани»*** была поставлена на сцене Азербайджанского государственного драматического театра имени М.Азизбекова.

**1987** – В издательстве «Гянджлик» была опубликована книга ***«Три романа».*** В нее вошли три романа – «Кизиловый мост», «Трехзарядная винтовка», «Не оглянись назад, старик!».

**1989** – Написал пьесу ***«Наша странная судьба»***, которая была поставлена на сцене Азербайджанского государственного драматического театра имени М.Азизбекова;
– Была поставлена пьеса ***«Воссоединение влюбленных в аду»***.

**1990** – Впервые спектакли ***«Наша странная судьба»*** и ***«Воссоединение влюбленных в аду»*** были представлены в городах Стамбуле и Анкаре во время гастролей Азербайджанского национального драматического театра в Турции.

**1991** – Пьеса ***«Одинокая ива»*** была поставлена на сцене Азербайджанского государственного драматического театра.

**1992** – Пьеса ***«Умные и сумасшедшие»*** была поставлена на сцене Азербайджанского государственного драматического театра.

**1993** – Написал повесть ***«Смерть Гачага Сулеймана»***.

**1994** – Торжественно отмечалось 80-летие со дня рождения писателя, и он первым среди деятелей искусства был награжден высшим на тот момент орденом республики – Орденом ***«Шохрет»*** («Слава»);

– В издательстве «Гянджлик» вышла в свет книга рассказов ***«Охота на джейрана»***.

**1996** – Написал свое последнее поизведение ***«Сказание о ханской дочери Гюльсанубер и таристе Садыхджане»***;

– Скончался 3 октября в Баку. Похоронен в некрополе Аллеи Первого Почетного Захоронения;

– 17 ноября состоялась премьера спектакля ***«Правитель и его дочь»***. С тех пор Академический Национальный Драматический театр открывает каждый новый сезон этим спектаклем.

**1997** – В издательстве «Шарг-Гарб» вышла в свет книга ***«Ты, о великий творец»***;

– Художник Тофик Аббасов написал портрет писателя.

**2001** – Президент Азербайджанской Республики господин Гейдар Алиев подписал Распоряжение об увековечивании памяти писателя;

– Средней общеобразовательной школе №41 в Баку было присвоено имя народного писателя Азербайджана Ильяса Эфендиева.

**2002** – В издательстве «Чинар-Чап» были опубликованы ***«Избранные произведения»*** писателя в семи томах на азербайджанском языке и «Избранные произведения» в двух томах на русском языке;

– В издательстве «Чинар-Чап» вышла в свет книга ***«Вторая жизнь художника*** (Ильяс Эфендиев: Хроника пяти лет)». Составитель и редактор книги – Эльчин.

**2003** – Был установлен барельеф на доме где в 1957-1979 годах проживал писатель.

**2004** – Президент Азербайджанской Республики господин Ильхам Алиев подписал Распоряжение о праздновании 90-летнего юбилея Ильяса Эфендиева.

**2005** – В издательстве «Чашыоглу» в серии «Азербайджанская литература» вышли в свет ***«Избранные произведения»*** Ильяса Эфендиева. Составитель и редактор издания Эльчин;
– В издательстве «Евразия Пресс» вышло в свет трехтомник ***«Избранных произведений»*** Ильяса Эфендиева. Составитель и редактор издания – Эльчин;
– Создан ***«Фонд Ильяса Эфендиева»***. Ему было присвоено имя народного писателя.

**2006** – В издательстве «Гаранфил» была опубликована книга ***«Неувядающий цветок памяти. Народный писатель Ильяс Эфендиев в воспоминаниях»***. Составитель книги – И.Гахраман;
– 3 октября в НАНА состоялось научная конференция памяти Ильяса Эфендиева.

**2008** – Состоялась церемония презентации художественного фильма ***«Судьба правителя»*** по произведению ***«Правитель и его дочь»***;
– В издательстве «Тахсил» была опубликована книга Низамеддина Шамсизаде ***«Литературный процесс и литературное поколение»*** (о творчестве народного писателя Ильяса Эфендиева).

**2009** – В издательстве «Шарг-Гарб» вышла в свет книга турецкого исследователя Садата Адигезала ***«Ильяс Эфен-***

***диев. Художник и время»*** Предметом исследования турецкого ученого явились только прозаические произведения писателя – романы, повести и рассказы.

**2010** – По инициативе Министерства Культуры и Туризма Азербайджанской Республики в издательстве «Тахсил» была опубликована книга ***«Ильяс Эфендиев. Жизнь, не вмещающаяся в стихи».*** В нее вошли посвященные Ильясу Эфендиеву стихи азербайджанских поэтов и писателей. Составитель и редактор книги – Гюнай Эфендиева.

**2011** – В издательстве «Елм и тахсил» вышла в свет книга Флоры Намазовой ***«Ильяс Эфендиев и язык лирико-психологической драмы»***;

– ***«Фонд Ильяса Эфендиева»*** обрел статус Международной неправительственной организации.

**2013** – ***«Избранные произведения»*** были изданы в Баку на азербайджанском и русском языках;

– В издательстве «Элм» была опубликована монография Вефы Ханоглу ***«Ильяс Эфендиев и азербайджанская культура»***.

**2014** – Президент Азербайджанской Республики господин Ильхам Алиев подписал Распоряжение о праздновании 100-летия со дня рождения Ильяса Эфендиева;

– 14 марта в Азербайджанском Государственном Университете Культуры и Искусства состоялась научно-теоретическая конференция на тему: ***«Творчество Ильяса Эфендиева как зеркало национально-культурных ценностей азербайджанского народа»***, приуроченная к 100-летию с дня рождения писателя;

– 19 мая в Париже в резиденции постоянного представительства Азербайджанской Республики при ЮНЕСКО состоялось торжественное мероприятие, посвященное 100-летию со дня рождения Ильяса Эфендиева. Мероприятие

было организавано представительством при поддержке Министерства Культуры и Туризма;

– 21 ноября во Дворце Гейдара Алиева состоялся юбилейный вечер, посвященный 100-летию со дня рождения писателя. Мероприятие было организовано Министерством Культуры и Туризма Азербайджана. Азербайджанская Национальная Библиотека представила на юбилейном вечере книжную выставку ***«Ильяс Эфендиев – 100»***;

– 25 ноября в Национальной Библотеке Турции состоялось торжественное мероприятие, посвященное 100-летию со дня рождения Ильяса Эфендиева. Мероприятие было организовано ТЮРКСОЙ и Азербайджанской Национальной Библиотекой при поддержке Министерства Культуры и Туризма Азербайджана;

– В НАНА состоялась организованная Институтом Литературы им. Низами научная сессия, посвященная столетию со дня рождения Ильяса Эфендиева;

– В средней общеобразовательной школе № 190 Сабаильского района гор. Баку был организован вечер, посвященный 100-летнему юбилею Ильяса Эфендиева;

– По инициативе Министерства Культуры и Туризма Азербайджанской Республики в издательстве ***«Тахсил»*** было опубликовано четырехтомное издание «Избранных произведений» Ильяса Эфендиева. Составитель и редактор издания – Эльчин;

– По инициативе Министерства Культуры и Туризма Азербайджанской Республики и Азербайджанской Национальной Библиотеки в Баку в серии «Выдающиеся деятели Азербайджана» была издана книга ***«Ильяс Эфендиев. Библиография»***;

– В Детской Республиканской Библиотеке им. Ф.Кочарли было подготовлено и опубликовано методическое пособие ***«Вечный адрес литературы»*** (сост. Р.Мамедли, спец.ред. и отв. за вып. Ш.Гамбарова);

– В БГУ состоялась Республиканская научная конференция, посвященная 100-летию со дня рождения выдающегося драматурга Ильяса Эфендиева;

– К 100-летнему юбилею выпущена почтовая марка ***«Ильяс Эфендиев»***;

– По инициативе Министерства Культуры и Туризма Азербайджанской Республики в издательстве «Тахсил» были опубликованы две посвященные писателю книги. Это книга под названием ***«Ильяс Эфендиев. Стоит оглянуться назад»***, в которую вошли статьи, очерки и воспоминания. А также памятная книга ***«Ильяс Эфендиев. Жизнь продолжается»*** под редакцией Эльчина;

– В Азербайджанском Университете Языков состоялись: семинар на тему ***«Художественно-эстетические особенности творчества Ильяса Эфендиева»*** и круглый стол на тему ***«Языковые и стилистические особенности творчества Ильяса Эфендиева»***.

– В Центральной библиотеке Агджабеди состоялось торжественное мероприятие под названием ***«Ильяс Эфендиев – выдающийся представитель азербайджанской литературы XX века»***. Мероприятие было посвящено 100-летию со дня рождения писателя.

– В Лондоне состоялась премьера фильма ***«Ты всегда со мной»*** режиссера Филиза Озджана;

– В Центральной Библиотеке Агдаша отметили столетие со дня рождения писателя;

– В Нахчыванском Государственном Университете состоялась научная конференция на тему ***«Ильяс Эфендиев – 100: Лучезарное творчество»***;

– В Центральной Библиотеке Астаринского района состоялась читательская конференция, посвященная Ильясу Эфендиеву;

– В Центральной Библиотеке Огузского района состоялся праздник книги на тему ***«Жизнь, вдохновленная искусством»***. Мероприятие было посвящено 100-летию со дня рождения писателя;

– В Государственном Русском Драматическом Театре с успехом прошла премьера спектакля ***«В хрустальном дворце»***;

– В Институте литературы им. Низами НАНА была издана книга под названием ***«Творчество народного писателя Ильяса Эфендиева в литературной критике»***;

– Спектакль ***«Хуршудбану Натаван»*** был поставлен в Академическом Драматическом театре;

– В Учебном театре Азербайджанского Государственного Университета Культуры и Искусств состоялось мероприятие под названием: ***«Boy çiçəyinin ətri»*** («Аромат горного цветка»);

– В Ереванском Государственном Драматическом Театре был поставлен спектакль по роману ***«Не оглянись назад, старик!»***;

– В ЦБС Наримановского района состоялось торжественное мероприятие, приуроченное к 100-летнему юбилею писателя;

– В Государственном Русском Драматическом Театре был представлен спектакль ***«В хрустальном дворце»*** в постановке Алексан-дра Шаровского;

– Режиссер Видади Гасанов поставил спектакль по произведению ***"Keçmiş üçün "gecikmə": Yaxud "Unudulmaz Əfəndi"nin xatirə yükü"*** («Опоздание» для прошлого или ноша памяти «Незабываемого Эфенди»);

– В Азербайджанском Государственном Театре Юного Зрителя состоялся открытый просмотр спектакля ***«Сказание о Сарыкейнек и Валехе»***;

– Во Дворце культуры Бейлаганского района при организации Управления Культуры и Туризма состоялся литературно-художественный вечер ***«Ты всегда с нами»***;

– В Шекинском государственном драматическом театре состоялся юбилейный спектакль ***«Встреча влюбленных в аду»*** в постановке режиссера Мирбалы Салимли.

**2017** – В издательстве «Элм» была опубликована IV книга многотомника ***«Вопросы азербайджанской литературы XX века»***, посвященная 100-летию со дня рождения Ильяса Эфендиева;

– По инициативе Министерства Образования Азербайджанской Республики и БГУ в издательстве «Элм и Тахсил» были опубликованы «Материалы Республиканской Научной Конференции «Ильяс Эфендиев – 100», посвященной 100-летию со дня рождения Народного писателя Азербайджана, Лауреата Государственной Премии Республики, выдающегося драматурга Ильяса Мухаммед оглы Эфендиева.

**2018** – В издательстве «Элм» была опубликована книга ***«Ильяс Эфендиев 100 (сборник статей)»***. В сборнике, посвященном 100-летию со дня рождения народного писателя, исследовались такие вопросы как: поэтическая эволюция повестей и рассказов писателя, жанрово-стилевая типология его романов, социальная среда и коллизия в его драматургии, литературно-критические беседы и встречи.

**2019** – В издательстве ***«Китаб Клубу»*** («Книжный клуб») были опубликованы «Избранные произведения» Ильяса Эфендиева;

– Роман ***«Ивы над арыком»*** был переиздан в серии «Азербайджанские классики» в издательстве «Ганун»;

– В Национальной Библиотеке состоялась презентация электронно-информационной базы ***«Ильяс Эфендиев – 105»***.

**2020** – Во 2-ом филиале ЦБС Хазарского района Бакинского Городского Управления Культуры в рамках проекта «Каждая книга – это отдельный мир» был подготовлен видеоролик по роману писателя ***«Три друга за горами»***.

**2021** – Роман ***«Кизиловый мост»*** был переиздан в серии «Азербайджанские классики» в издательстве «Ганун»;

– В издательстве «Шарг-Гарб» по совместной инициативе Министерства Образования Азербайджанской Республики и Азербайджанской Национальной Библиотеки был опубликован фотоальбом ***«Ильяс Эфендиев. Оглядываясь назад».*** Составитель фотоальбома – профессор Керим Тахиров.

**2022** – Роман ***«Ивы над арыком»*** был переиздан в серии «Азербайджанские классики» в издательствах «Ганун» и «Али и Нино»;

– Роман ***«Трехзарядная винтовка»*** был переиздан в серии «Избранное из азербайджанской литературы» в книжном издательстве «Алтун»;

– Книга Егяны Гасымовой ***«История азербайджанской литературы: Художественная публицистика Ильяса Эфендиева»*** выпущена в Азербайджанском Государственном Педагогическом Университете.

**2023** – Роман ***«Трехзарядная винтовка»*** был опубликован в издательстве «Имза». Составитель и редактор – Назим Тапдыгоглу;

– ***Ильяс Эфендиев (Памятная книга)*** Издана Министерством Культуры Азербайджанской Республики и Азербайджанской Национальной Библиотекой.

**2024** – К 110-летнему юбилею со дня рождения Азербайджанской Национальной Библиотекой из сершии «Выдающиесия деятели културы Азербайджана» издана 2-е издание библиографии ***«Ильяс Эфендиев»***;

– Азербайджанской Национальной Библиотекой подготовлена и предоставлена читателям электронная информационная база ***«Народный писатель Ильяс Эфендиев»***;

– В Шекинском театре готовится премьера пьесы ***«Ты всегда со мной»*** режиссера Эльвина Нури;

– В Детской Республиканской Библиотеке им. Ф.Кочарли составлено методическое пособие к 110-летию народного писателя.

– Показан спектакль ***«Хан Гызы»,*** посвященный 110-летию писателя и памяти народной артистки Амалии Панаховой, организованный Министерством культуры и СТД Азербайджана в Бакинском муниципальном театре.

## İlyas Əfəndiyev ədəbiyyat və mədəniyyət xadimləri haqqında

*Doqquz əsrə yaxın bundan əvvəl elm və mədəniyyət ocağı olan Gəncə şəhərində böyük* ***Nizami Gəncəvinin*** *ölməz əsərləri yarandı! Bu əsərlər dünya poeziyasına yeni vüsət, fikir və hisslərin yeni zənginliyini gətirərək onu gələcək əsrlərin yüksəkliyinə qaldırdı!*

*Bu əsərlər insan zəkasındakı hikmətin sirlərini tərənnüm edirdi. Bu əsərlərdə insan aqibəti haqqında, qəhrəmanlığın, qorxaqlığın, böyüklüyün və kiçikliyin faciəsi haqqında təmkinlə düşünən cahanşümul bir filosofun əbədi surəti yaranmışdı.*

*Onun əsərləri böyük xalq ürəyinin tərcümanı idi. Aydının, Oqtay Eloğlunun iztirabları, Elxan Biləgənlinin, Sevilin, Almazın mübarizəsi məhz Azərbaycan xalqının iztirabları, mübarizəsi idi. Cavan ərini sevə-sevə onun üçün hər bir fədakarlığa hazır ola-ola Dövlət bəylərin cəhənnəminə düşən Gültəkinin faciəsi keçmiş, məsum, fədakar Azərbaycan qadınının faciəsi idi.* ***Cəfər Cabbarlı*** *bütün ruhu ilə, bütün istedadı ilə Azərbaycan xalqına bağlı idi.*

***Qara Qarayev*** *heç bir zaman unudulmayacaq. Ü.Hacıbəyovun başladığı böyük və tarixi işi yeni yüksəkliyə qaldıraraq azəri musiqisini ən qabaqcıl dünya musiqi mədəniyyəti xəzinəsinə daxil etdi... Qara Qarayevin musiqisində azəri xalqının milli ruhu ilə müasir mədəniyyətin ab-havası, müasir mütərəqqi ideyalar təbii bir gözəlliklə birləşmişdir.*

*Həqiqi sənətkar səmimi olmaya bilməz. Xalq isə bu səmimiyyəti duymaqda fövqəladə həssaslığa malikdir. Xalq, deyək ki, dünya satirik poeziyasının ən amansız nümunələrini yaratmış, böyük Sabirdəki el dərdini duyduğu üçün ürəyində onun əbədi abidəsini yaratmışdır. Sənətkar səmimiyyəti sehrkar bir qüvvəyə malikdir. Heç bir tərif, heç bir movzaçilik onu əvəz eləyə bilməz... Şaiqə sönməz maraq və hörmətin də əsl sirri bundadır!*

*Biz ilk dəfə gözümüzü* ***Abdulla Şaiq*** *şeirləri, nağılları ilə açmışıq. İllər keçəcək, yeni-yeni nəsillər gələcək, Şaiq bizim üçün olduğu kimi, onlar üçün də həmişə əziz olacaq.*

***Səmədin*** *dili sanki Vətənimizin hər gülündən bir rəng, hər çiçəyindən bir ətir almışdır, sanki suların almaz parıltısından, dağların əzəmətindən, Azərbaycan günəşinin həyatverici istisindən gözəllik və qüvvət almışdır...*

*Bu ahəng, bu musiqi, bu sadəlik sanki qəlbimizdə çırpınan duyğuların özüdür.*

*O zamankı həyatın elə bir gizli guşəsi qalmamışdır ki,* ***Sabir*** *satirasının projektoru ora düşüb, gözəgörünməz mikroblar kimi hərəkət edən yaramazları işıqlandırıb atəşə tutmasın. Onun yaradıcılığı sonsuz surətlər silsiləsinə malikdir.*

*Məlumdur ki, şairin hökmü bədii təfəkkürün tərliyindən, romantik reallığından, zamanın pozitiv həqiqəti düzgün duymasından irəli gəlir! Həmişə* ***Süleyman Rüstəm*** *şeirinin forması məzmundan doğur, pafosun, coşğunluğun, fikrin vuruş sürətinə tabe olur.*

*Azərbəycan sovet poeziyasının yüksəlişində, şeirimizin zənginləşməsində, saflaşdırılmasında* ***Rəsul Rza*** *yaradıcılığının tarixi xidməti vardır. Onun poeziyası hər cür sadəlövh fəlsəfəçiliyə, saxta xəlqiliyə, ucuz heyranlığa zidd olan, həyatın real hadisələrindən doğub mərdanə romantika ilə uzaq üfüqlərə qanadlanan poeziyadır.*

*Nə qədər ki, dilimiz yaşayır, nə qədər ki, poeziyaya mənavi ehtiyacımız var, Rəsul Rza da bizimlə olacaq.*

***Osman Sarıvəllinin*** *tərənnüm etdiyi hisslərdə, həyat lövhələrində daima insana xoş gələn bir təravət vardır. Onun rübabının səsi qocalara da, cavanlara da, ziyalılara da, azsavadlılara da təsir edir, həyəcanlandırır... Onun şeirlərindəki duyğular bahar gecələrinin ətirli nəsimi kimi ürəkləri oxşayır.*

***Mir Cəlalın...*** *geniş və xeyirli yaradıcılığı haqqında düşünməmək mümkün deyildir... O, nədən yazırsa yazsın, daim səmimi olmuş, daim özünə, öz məslək və vicdanına sadiq qalmışdır.*

*Mən hələ yazıçı olmadığım zamanlarda onun əsərlərini diqqətlə izlərdim. Mir Cəlalın əsərlərindəki səmimiyyət, doğruçuluq və ilıq həyati yumor həmişə məni cəzb edərdi.*

*Siz həyatınızı dünyada ən yüksək, ən nəcib bir ideal uğrunda mübarizəyə sərf etmişsiniz. Sizi xatırlayarkən, bizim xəyalımıza gələn ilk düşüncə, ilk fikir bu olur. Xalq məhəbbəti, xalq sevgisi sizin birinci bəşəri xüsusiyyətiniz olmuşdur.*

*Budur, mən keçmişin səhifələrini vərəqləyərkən, nəzərlərim sizin – gözəl insan, fədakar maarifçi, səmimi yazıçı* ***Süleyman Saninin*** *üzərində dayanır və düşünürəm ki, bu nəcib insanın dünyada qələmi ilə xalqından başqa heç nəyi, heç bir arzu və diləyi olmamışdır.*

*Eyni sözləri istedadlı şairə* ***Mirvarid Dilbazi*** *haqqında da demək olar. Vətənə, xalqa bağlılıq, heyranlıq onun şeirlərində sanki incə bir musiqiyə çevrilir. Bu musiqidə elə bil ki, bahar su- larının şırıltısını, yenicə qayıtmış sığırçınların, qaranquşların hə- yəcanlı səslərini eşidirik. Ağ, çəhrayı meşə çiçəklərinin rayihəsini duyuruq. Şairədə Azərbaycan təbiətinə bir vurğunluq vardır və az qala bu nəcib hiss onun zərif şeirlərinin bir leytmotivinə çevrilir.*

*Müasir Azərbaycan uşaq ədəbiyyatının inkişafında görkəmli xidmətli olan şairlərimizdən biri də* ***Zeynal Cabbarzadədir****. O, həm böyüklər, həm də kiçiklər üçün yazan, rəvan bədii dilə, lirik ahəngə malik məhsuldar bir şairdir. Onun onlarca gözəl mahnılar kimə məlum deyil? O, həmişə səmimi və açıq qəlblidir.*

*Mən onu ilk dəfə Xuraman rolunda görmüşəm. Onun müxtəlif psixoloji anlarda, tez-tez baş verən ruhi dönüş məqamlarında göstərdiyi ustalıq, məharət və incəlik mənə o qədər təsir etmişdi ki, teatrdan çıxandan sonra da uzun müddət Xuraman gözümün qabağından çəkilmirdi... O azərbaycanlı Xuramanı*

*necə təbii yaradırsa, rus qadını Katerinanı da elə koloritik və gözəl ifa edir.* ***Fatma Qədri*** *geniş yaradıcılıq vüsətinə malik sənətkardır.*

***Hökumə*** *Antonionun zühuru ilə Misir çariçasının qəlbində başlayan məhəbbət tufanını o qədər təbii, o qədər həssas, o qədər dərin ehtirasla yaradır ki, adam səhnəni unudur, qarşısında yalnız sevən və bu sevgini bütün varlığı, bütün vücudu ilə hiss edən bir qadın görünür. Bir an adama elə gəlir ki, onun bütün taxt-tacı bu məhəbbətin, bu ehtirasın qarşısında bir heçdir.*

***Əli Vəliyev*** *sözübütöv, karagələn bir adam kimi tanınırdı, buna görə də çətinliyə düşən adamların tez-tez ona müraciət etmələri təsadüfi deyildi.*

*...Əli Vəliyev qəzetdə, jurnalda redaktor olanda da, başqa vəzifələrdə də, həmişə istedad hiss elədiyi gənc yazıçılara, şairlərə əlindən gələn köməyi əsirgəmirdi. Ona görə də, gənc yazıçılar özlərində ona qarşı bir doğmalıq hiss eləyirdilər. Kömək lazım olanda ona müraciət edirdilər.*

***Adil İsgəndərov*** *öz işində, necə deyərlər, bütöv sənətkar idi. Onun quruluşlarında həll olunmamış mətləbə, tamamlanmamış epizoda rast gəlmək olmazdı. Heç bir detal onun nəzərindən yayınmazdı. O, realist bir sənətkar olmaqla bərabər, romantik idi. Onun səhnə realizmi qanadlı, şairanə bir realizm idi. Stanislavski üsulunu, Moskva Bədaye Teatrının ənənələrini yaradıcı şəkildə bizim akademik teatra gətirən, bu ənənələri Azərbaycan xalqının temperamenti ilə, Azərbaycan koloriti ilə birləşdirərək, məhz milli ruhda inkişaf etdirən böyük rejissorumuz Adil İsgəndərov olub.*

***"Azərbaycan"ın*** *keçdiyi yol bizim hər birimizin mənəvi həyatı ilə bağlı olmuşdur... Biz balaca bir rayon şəhəri olan Füzulidə yaşayırdıq... Elə bil ki, o, hələ məktəb masasında oturan bizi böyük, geniş xarici dünya ilə bağlayırdı...*

*Bizim ilk əsərlərimizi də xalqa o tanıtdırdı. "Gözlənilməyən sevgi" adlı ilk hekayəm onda nəşr olunanda aldığım məktublar, vurulan zənglər, o zaman heç kəsin tanımadığı bir gənc olan məndə yaratdığı hisslər indi də yadımdadır.*

***İsa Hüseynovun*** *əsərlərini həmişə maraqla oxuyur və izləyirəm. Onun yazı manerasındakı sadəlik, şairanəlik və xalq ruhu mənə bir oxucu, bir yazıçı kimi xoş gəlir, hiss edirəm ki, o yazarkən çətinlik çəkmir, özünü yormur, hadisələrin təbii axını ilə gedərək, həyatdakı mühüm cəhətləri, xüsusiyyətləri nəzərdən qaçırmır. Hiss olunur ki, o, insan əhvali-ruhiyyəsinə, münasibətlərinə dərindən nüfuz etmək, onları bir yazıçı kimi açıb göstərmək istəyir. O, öz qəhrəmanlarını yaxşı bildiyi, yaxşı tanıyıb duyduğu kənd həyatından seçir və təsvir edir.*

*Həqiqi bütöv insan qəflətən öləndə, elə bil ki, meşədə qüdrətli bir palıd yıxılır.*

***Ənvər Əlibəyli*** *həqiqi bütöv insan idi: onun təbiətində də, poeziyasında da mərdanəlik var idi. Sənətdə əsl poeziyanı saf və mərd ürəklər yaradır!*

*Ənvərin şeirləri mənə həmişə çınqıllar arasına səpələnmiş dağ güllərini xatırladır.*

*Onu tanıtdırmaq üçün car çəkilməmişdir. Rəssamın əsərləri hamıya "gəl-gəl" deyir. Göy qurşağı səmada necə əlvan, necə rəngarəngdirsə,* ***Tahirin*** *də sənət yolunda qoyduğu izlər o qədər gözəldir.*

*Ədəbiyyata yeni-yeni gənc qüvvələr gəlirdi. Bunların içərisində* ***Zeynal Xəlil*** *xüsusilə seçilirdi. Onun lap ilk şeirlərində nəzər-diqqəti cəlb edən bir aydınlıq, yığcamlıq, hədəfi sərrast nişan almaq cəhdi var idi. O da, şeirimizin özündən əvvəlki nümayəndələri kimi, öz mövzusunu xalqdan, onun qurmaqda olduğu yeni həyatdan alırdı.*

***Tofiq*** *təbiətən şairanə və olduqca həssas bir şəxsiyyət idi.*

*İstər əsərdə, istərsə də aktyor oyununda psixoloji momentləri dərindən duyurdu və özü də həyatda belə idi. Yalançı pafosdan, zahiri təmtəraqdan, tamaşaçıları güldürmək üçün yalançı ko- mizmdən bərk acığı gəlirdi və özü də həyatda belə idi. O, həqiqi sənət üçün yaranmış bir istedad idi...*

***Mehdi** çox maraqlı, orijinal bir şəxsiyyət idi. Ədəbiyyatımızda, incəsənətimizdə baş verən müvəffəqiyyətsizliklər, gerilik əlamətləri onu əsəbiləşdirib özündən çıxarırdı. O, belə halların heç birinə qarşı biganə qala bilmirdi. Elə bil ki, bütün bunlarla mübarizə aparmaq onun şəxsi, doğma işi idi. Elə bil, o, bunların hamısına məsul idi. Mehdi nöqsanlara qarşı amansız olduğu qədər də müvəffəqiyyətlərə sevinirdi. Salyeri paxıllığı ondan uzaq idi.*

*Mehdi müasir mədəniyyətin, deyərdim ki, zirvəsində dayanan adamlardan idi. Dünya ədəbiyyatına yaxşı bələd idi. Həm də ki, heç bir tərifli əsərləri belə doğma kimi qəbul etməzdi. Bizim ədəbiyyatımızı da həmişə diqqətlə izləyirdi, güclü və zəif cəhətləri haqqında aydın fikirləri olurdu.*

***Sabit Rəhman** elə adam idi ki, onunla hər şey danışmaq olardı. Hətta, ən ağır, ən çətin illərdə belə...*

*Sabit Rəhman ölkənin mədəni-iqtisadi yüksəlişi barədəki xalqı təngə gətirən bitib-tükənməz təbliğatla həqiqət arasındakı uçurumu görüb hiss eləyən yazıçı idi.*

*Bu cəmiyyətdə aldanan insanlar, özlərindən asılı olmayaraq, gülünc vəziyyətlərə düşürdülər və bunu Sabit kimi istedadlı yazıçılar hiss etməyə bilməzdilər.*

*Mən, həmişə Sabit barədə fikirləşəndə, istər-istəməz, teatr barədə fikirləşirəm. Sabit Rəhman və Azərbaycan teatrı – mənim üçün bu iki anlayış arasında ən sıxı bir yaxınlıq var...*

***Nigar xanım** romantik təbə, təmiz, aydın koloritli dilə, zərif zövqə malik bir şairədir. Dünya ədəbiyyatına yaxşı bələd idi. Azərbaycan Akademik Dram Teatrında mənim gördüyüm ilk tamaşa Şillerin "Məkr və məhəbbət" faciəsi idi. Pyesi Nigar xanım çox aydın, təbii bir dillə rus dilindən tərcümə etmişdi. Ancaq sonralar o pyesi rus dilində oxuyarkən mənə elə gəlirdi ki, əksinə, Şillerin əsərini Azərbaycan dilindən rus dilinə tərcümə ediblər...*

*İncə ruhlu həyəcanlar, romantik çalarlar, ülvi hisslər Nigar xanımın şeirində mənim çox hiss etdiyim xüsusiyyətlərdəndir. O zamankı estetikada vulqar sosiologizm təbliğatı öz damğasını Nigar xanımın poeziyasına vura bilməmişdi.*

*Rəhmətlik **Cəfər Cəfərov** yalnız ona görə görkəmli teatrşünas deyildi ki, yüksək intellektə və kəsərli qələmə malik idi, ona görə ki bu cəhətləri ilə bərabər, o, səhnəni hiss edirdi.*

***Tofiq Kazımov** təbiətən şairanə və olduqca həssas bir şəxsiyyət idi. İstər əsərdə, istərsə də aktyor oyununda psixoloji momentləri dərindən duyurdu və özü də həyatda belə idi. Yalançı pafosdan, zahiri təmtəraqdan, tamaşaçıları güldürmək üçün yalançı komizmdən bərk acığı gəlirdi və özü də həyatda belə idi.*

*Mən onu ilk dəfə Xuraman rolunda görmüşəm. Onun müxtəlif psixoliji anlarda, tez-tez baş verən ruhi dönüş məqamlarında göstərdiyi ustalıq, məharət və incəlik mənə o qədər təsir etmişdi ki, teatrdan çıxandan sonar da uzun müddət Xuraman gözümün qabağından çəkilmirdi... O, azərbaycanlı Xuramanı necə təbii yaradırsa, rus qadını katerinanı da elə koloritik və gözəl ifa edir. **Fatma Qədri** geniş yaradıcılıq vüsətinə malik sənətkardır.*

*Yeri gəldi-gəlmədi "səhnə fədaisi" ifadəsini çox işlədirlər. Bəzən də o "fədai" şişirdilmiş "fədai" olur. Səhnə fədaisi **Ağasadıq Gəraybəyli** idi, **İsmayıl Osmanlı** idi, rəhmətlik **Süleyman Tağızadə** idi.*

*Əgər **Tofiq Kazımovun** və **Mehdi Məmmədovun** yaradıcılığını poetic dillə səciyyələndirmək olsaydı, Tofiq rejissorluqda lirik şairdir, Mehdi isə epic sənətkardır.*

*O, insan qəlbinin, insan hisslərinin fövqəladə dərəcədə güclü bir tərcümanı kimi meydana çıxmışdı... **Tolstoy** bütün əsrlərin böyük sənətkarıdır!*

***Mərziyə Davudova, Fatma Qədri**, eləcə də **Sofiya Bəsirzadə** Azərbaycan dilini nəinki öyrəndiklərinə görə, bu dili hiss etdiklərinə, bu dilin rəngarəng koloritinə bələd olduqlarına görə, bu dili hiss etdiklərinə, bu dilin rəngarəng*

*koloritinə bələd olduqlarına görə Azərbaycan səhnəsinin dogma sənətkarlarıdır.*

***Amaliya Pənahova*** *dramaturqun demədiklərini, yəni Heminquey aysberqinin alt qatını görən, hiss edən və yaratmağı bacaran aktrisadır.*

***Həsənağa Turabov*** *səhnədə sadə, təmtəraqsız dillə danışdı və təmtərağın əldə edə bilməyəcəyi emosionallığı əldə etdi.*

***Şəfiqə Məmmədova****nın istedadı ilə savadı üst-üstə düşdüyü üçün səhnədə yaratdığı surətlərillər keçdikdən sonr da unudulmur və teatrımızda onun yeri görünür.*

***Mərahim Fərzəlibəyov*** *istedadlı rejissordur. Onunla işləmək mənim üçün asandır, çünki məni başa düşür və həmişə çalışır ki, bunu səhnədə də təcəssüm etdirsin. Çox zaman da istəyinə nail olur.*

*Mən təəssüf edirəm ki, rejissorlar* ***Səyavuş Aslanın*** *potensial imkanlarında yalnız komik qəhrəmanlar görürlər. Bu komikliyi bəzən hətta hırıltı əvəz edir. Ancaq onun böyük istedadını açılmamış istedadını görüb və açıb klassik, tragik obrazlar yaratmaq olar. Bəlkə, heç Səyavuşun özünün də bundan xəbəri yoxdur.*

*Bəsti Cəfərovanın istedadı üçün rolun "müsbət"liyinin ya "mənfiliyi"nin, yaxud komikliyinin, ya tragikliyinin əhəmiyyəti yoxdur. O, "mənfi" də də, "müsbət"də də, kimikdə və tragikdə də eyni dərəcədə təbii və inandırıcıdır.*

***Ostrovskinin*** *həyatı və əsərləri dünya ədəbiyyatının maraqlı və ən təəccüblü hadisələrindən biridir. Bu həyat insan iradəsinin, həqiqi insan ləyaqətinin bir təntənəsidir.*

## Görkəmli şəxsiyyətlər İlyas Əfəndiyev haqqında

İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr veribdir, böyük xidmətlər göstəribdir, çox dəyərli əsərlər yaradıbdır. İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı, bir də ona görə əhəmiyyətlidir ki, o öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünkü nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir. Beləliklə, xalqımızı həm tarixə hörmət bəsləməyə sövq etmişdir və bu barədə xidmətlər göstərmişdir, tarixi bilmək üçün xalqımıza yardım etmişdir, eyni zamanda yaşadığımız zamanda mənəviyyat, əxlaq, insanlıq, Vətənə və millətə sədaqət ruhunu aşılamışdır. Hesab edirəm ki, xalqımız bu əsərlərdən çox bəhrələnmişdir.

Ona görə də mən bu gün İlyas Əfəndiyevin bütün yaradıcılığını, onun yazdığı əsərləri böyük minnətdarlıq hissi ilə xatırlayıram. Hesab edirəm ki, o, xalqımız qarşısında öz borcunu, daha doğrusu, öz missiyasını şərəflə yerinə yetirmişdir, xalqımıza, mədəniyyətimizə, teatrımıza, ədəbiyyatımıza çox böyük irs, böyük sərvətlər qoyub getmişdir. Güman edirəm ki, bunu xalqımız heç vaxt unutmayacaqdır. Şübhəsiz ki, biz İlyas Əfəndiyevin xatirəsini əbədiləşdirmək üçün qərarlar da qəbul edəcəyik, şəxsən mən edəcəyəm, çünki o, buna layiqdir. Belə əsərlərlə o, onsuz da xalqın qəlbində yaşayacaqdır.

**Heydər Əliyev,**
*Ümummilli Lider*

İlyas Əfəndiyev klassik ədəbi fikrin böyük ənənələri zəminində öz üslubunu yaradan sənətkar kimi xalqımızın söz sənəti xəzinəsinə dəyərli töhfələr vermişdir. Yazıçının bədii nailiyyətlərlə zəngin irsi ədəbiyyatımızda yeni mərhələnin təşəkkülünə səmərəli təsir göstərmişdir. Azərbaycan teatr səhnəsinin müasir simasının formalaşmasında İlyas Əfəndiyev dramaturgiyası özünəməxsus əhəmiyyətli yer tutur.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

İlyas Əfəndiyev əməkçilərin zəhmət birliyini böyük məhəbbətlə və hərarətlə təsvir edir, onların zəhmətini parlaq və real boyalarla göstərir...

**Səməd Vurğun,**
*Xalq şairi*

Azərbaycan sovet şeirinin təməlini qoymuş Süleyman Rüstəmlə Səməd Vurğunun, Rəsul Rzanın arasında kökü dərinliklərə yayılması, gövdənin birliyi, yekparəliyi nöqteyi-nəzərindən bir birlik, vahidlik, budaqların eyni göy üzünə ayrı-ayrı tərəflərdən uzanması nöqteyi-nəzərindən isə ayrılıq vardır. Bir-birinə həm oxşayırlar, həm oxşamırlar. Mirzə İbrahimovla Hüseyn Mehdinin nəsri haqqında da, ustad Cəfər Cabbarlının və İlyas Əfəndiyevin dramaturgiyası haqqında da eyni şeyi söyləmək mümkündür.

**Nazim Hikmət,**
*Beynəlxalq Sülh mükafatı laureatı, türk şairi*

İlyas Əfəndiyev hər cür milli məhdudluqdan uzaq bir yazıçıdır. Ədəbiyyatımızın beynəlmiləlçilik, ümumbəşəri ideyalarına sadiq olan ədib, cəmiyyətdə müxtəlif millətlərdən olan insanların necə qardaş kimi əlbir çalışıb, xoşbəxt yaşadıqlarını dövrümüzün ən böyük nailiyyəti kimi təsvir edir.

**Məmməd Arif,**
*akademik*

İlyas Əfəndiyev gələcək nəsillərin də sevə-sevə oxuyacağı uzunömürlü əsərlər yaradıcısıdır.

**Məmməd Cəfər Cəfərov,**
*akademik*

İlyas Əfəndiyev öz yaradıcılıq xüsusiyyətlərinə sadiq qalaraq, təbii insan psixologiyasını təbii və sadə boyalarla göstərir.

**Mehdi Hüseyn,**
*Xalq yazıçısı*

Azərbaycan ədəbiyyatı mənim nəzərimdə böyük və rəngarəng gülüstan isə, İlyas Əfəndiyevin yaradıcılığı bu gülüstanda öz gözəlliyi, ətri və təravəti ilə dərhal diqqəti cəlb edən cazibədar toplu və dolğun bir çiçəklikdir.

İlyas Əfəndiyev yaradıcılıqda gözəlliyə, incəliyə, estetik zərifliyə meyil edən yazıçıdır. O, bədii əsər üçün vacib xüsusiyyətlərə dilin ifadəli və obrazlı

olmasına, xarakterlərin canlı və dolğun çıxmasına, süjet ve kompozisiya bütövlüyünə ciddi diqqət yetirir, böyük əmək sərf edir, bu da nəticəsiz qalmır, onun əsərlərinin maraqlı, oxunaqlı olmasına kömək edir. Bu əmək və səyin mükafatı isə oxucuların məhəbbətidir ki, İlyas onun azlığından şikayət edə bilməz.

**Mirzə İbrahimov,**
*Xalq yazıçısı, akademik*

İlyas Əfəndiyev yaradıcılığı Azərbaycan sovet ədəbiyyatının münbit zəminindən doğan, rişələnən, getdikcə köklənən qoşa qardaş kimi qoşalıqda yaradıcılıqdır. Bu yaradıcılıq istedadlı nasirlə mahir dramaturqu birləşdirib, birlikdə söykək-söykəyə qaldırır... İlyas nəsri onun dramaturgiyasına, dramaturgiyası da onun nəsrinə dayaq durur, kömək göstərir. İlyasın nəsri də, dramaturgiyası da ahəngdardır, cazibədardır... Sən İlyas nəsrini oxuyursan, istər onun romanı, povesti olsun, istərsə bir-birindən gözəl hekayəsi olsun, heç birisi səni – oxucunu yormur...

**Süleyman Rəhimov,**
*Xalq yazıçısı*

...İlyas Əfəndiyevin bədii dilini öyrənərkən orada ümumiyyətlə ustad sənətkarların xüsusi diqqət yetirdikləri bu məsələlərdə də onun müsbət nəticələr əldə etdiyi görünür: onun şəxsi estetik dünyası üçün səciyyəvi olan sadəlik, aydınlıq, bulaq suyu kimi şəffaf, təmiz dağ havası kimi saf ifadə tərzi, bir sözlə – təbiilik adama çox xoş gəlir, estetik zövq verir.

**Əziz Mirəhmədov,**
*akademik*

İlyas Əfəndiyev dramaturgiyasının məhsulu və məhsuldarlığı yalnız rəqəmlə ölçülə bilməz. Burada kəmiyyət keyfiyyətdən ayrı deyildir. Bu keyfiyyətin, ideya-bədiilik vəzninin özü əsl meyardır.

**Mehdi Məmmədov,**
*Xalq artisti, professor*

İlyas Əfəndiyev bir sənətkar kimi həmişə həyatın işıqlı cəhətlərinə xüsusi diqqət verir və qələmə alır. Onun qəhrəmanları dövrümüzün qabaqcıl adamlarıdır. Bu qəhrəmanlar yaşayıb yaratmaqdan, xarüqələr yaratmaqdan həzz alırlar. Yüksək mədəniyyət, gözü-könlü tox, halal əməklə ömür sürən,

əliəyrilərə, gözüdağınıqlara, vəziyyətdən sui-istifadə edən şöhrətpərəstlərə qarşı barışmaz olan bu adamlar ilk görüşdən oxucu və tamaşaçıların ürəyinə yol tapır, özünü sevdirir.

**Əli Vəliyev,**
*Xalq yazıçısı*

Çiynimdə sabun dolu çanta Krupskaya küçəsilə "Kubinka"ya gedirdim. Ketsxoveli küçəsinin tininə çatanda qulağıma evlərin yuxarı mərtəbəsindən bir səs gəldi:

– Nikbin, hara gedirsən, çiynindəki nədir heylə?

Yuxarı boylandım. Eyvanın məhəccərinə söykənmiş tünd mavi kostyumlu yaraşıqlı kişini – İlyas Əfəndiyevi  gördüm. İttifaqa gəlib-gedəndə nə əcəb sifətim, hətta ilk imzam, lap təxəllüsüm onun yadında qalmışdı?!

– Şeirini oxudum, təbrik edirəm, yaxşıdır, özü də əruzdur:

Yolunu gözləyir artıq
Qızıl əskər, baharım!
Düşməni qanına qəltan
Eləyən ər, bahraım!
Gəlişinlə sən onun
Ruhunu şad eləyərək
Dər gülündən, çiçəyindən
Ona göndər, baharım!

– Bu vəzn hər yazanın xörəyi deyil.

İlyas müəllimin səsi mülayim və ərkyana idi. Elə bil məni lap çoxdan tanıyırdı.

Sanki çiynimdən asılmış sabun dolu ağır çanta yüngülləşdi. İlk mətbu şeirim haqqında ilk yazıçı sözü eşitdim. Elə bil həmin gün 18 yaşlı Qabilə 30 yaşlı İlyas müəllim şairlik vəsiqəsi verdi.

Unudulmaz dramaturqumuz, lirik-romantik, şairanə nasirimiz, günün səsinə səs verən, hadisələrə isti münasibət bildirən, aydın ifadəli publisist, xoşu gələn və gəlməyən əsərlər haqqında obyektiv, təhlili fikir söyləyən tənqidçi İlyas Əfəndiyevlə ilk yaxınlığım onun məni eyvandan səsləməsiylə başlandı. Sonradan bu yaxınlıq ailəvi dostluğa, oğlanları Elçin və Teymurçinlə qardaşlığa, başqa yaxın qohumlarıyla mehribanlığa çevrildi.

**Qabil,**
*Xalq şairi*

Azərbaycan Dövlət Akademik Dram Teatrının son otuz ildəki inkişafını İlyas Əfəndiyevsiz təsəvvür etmək mümkün deyil...

Onun pyeslərində həmişə təzə, təravətli görünən bir müasirlik var. Bu müasirlik isə həyatımızın daxili məzmunundan, onu irəli aparan qəhrəmanların fəaliyyətindən və bu fəaliyyətin konfliktlərindən, poeziyadan doğur... İlyas Əfəndiyevin dramaturgiyasında realizm və romantika, sərt həyat həqiqətləri ilə şeiriyyət həmişə vəhdət təşkil edir.

**İsmayıl Dağıstanlı,**
*Xalq artisti*

Xalqımızın dərin məhəbbətini qazanan, ömrünün son günlərinədək qələmi əldən yerə qoymayan, respublikamızda yaşayan, qurub-yaradan adamlarımızın mənalı həyatını ilhamla tərənnüm edən görkəmli sənətkarlardan biri də sevimli Xalq yazıçımız İlyas Əfəndiyevdir.

Mənalı, kişi kimi ömür sürmək, öz zəhmətilə qurduğu həyatdan zövq alaraq yaşamaq, bu keyfiyyətə malik olan hər kəsin haqqıdır.

Görkəmli yazıçı-dramaturqumuz İlyas Əfəndiyev belə şəxsiyyətlərdən olmuşdur.

İlyas Əfəndiyev öz əsərləri ilə insan ürəklərinə işıq salmış, xalq səadəti üçün əlindən gələni əsirgəməmişdir. Öz xalqına bütün varlığı ilə bağlanan, onun arzu və istəkləri, ümid və dərdləri ilə yaşayan şəxsiyyətlər heç vaxt unudulmurlar. Onlar dünyasını dəyişəndən sonra daha da ucalırlar.

**Süleyman Ələsgərov,**
*Xalq artisti, professor*

İlyas Əfəndiyev ən çox oxunan, sevilən, özü də heç kimə oxşamayan yazıçılarımızdandır. Onun öz mövzuları, həyat hadisələrinə öz yanaşma yolları və üsulu vardır. Bu yaradıcılığını məşhur edən problemlərində özünəməxsusluq, orijinallıq güclüdür. Ədib, adətən, hamı üçün aydın və məlum olan həyat problemlərinə müraciət etməyi sevmir, gerçəkliyin elə həqiqətlərini, elə məsələləri üzə çıxarmağı bacarır ki, onlar həm də yeni olur, ədəbi maraq oyadır, müasir problemləri barədə düşünənləri hərəkətə gətirir və təsadüfi deyil ki, ictimai müzakirəyə, mübahisəyə səbəb olurlar.

**Kamal Talıbzadə,**
*akademik*

İlyas Əfəndiyevin – əsl roman ustasının müşahidəçilik qabiliyyəti, təbiəti sənətkar gözüylə görmək məharəti diqqəti cəlb edir. Məsələn, hələ iyirmi il bundan əvvəl "Dağlar arxasında üç dost" romanını oxuyarkən, kiçik bir səhnəciyin təbii, inandırıcı təsviri – dağlarda gecə, otaqdan bayıra düşən və qar üstündə yuxarıdan aşağı uzanan işıq zolağının təsviri, dağa qalxanların bu işıq zolağını arabir yarması... o qədər ustalıqla işlənmişdir ki, indi də elə bil, gözümün önündədir. Rəssam dili ilə desək, bu səhnə birbaşa naturadan çəkilmişdir.

**Mikayıl Abdullayev**,
*Xalq rəssamı*

Yazıçı canlılığı yaratmaq üçün heç bir boyasını əsirgəməmişdir.

**Cəfər Xəndan,**
*professor*

Dramaturq maraqlı, həyati bir süjet seçmiş, burada insanların əlaqələrini, təbiətlərindəki ziddiyyətləri, rəğbət və mütəqabil münasibətlərini vermiş, yaddaqalacaq obrazlar silsiləsi yaratmışdır.

**Əli Sultanlı,**
*professor*

O, Kommunist Partiyasına daxil olmadı. Çünki əqidəsinə zidd gedə bilmirdi... O, mənə inanırdı və mən də çəkinmədən ona ürəyimi açır, içində yaşadığım rejimə nifrətimi bildirirdim. Çünki onun saflığına, xarakterik bütövlüyünə və ən ümdəsi də mənim kimi totalitar rejimə nifrət etdiyinə çox yaxşı bələd idim. Bir sözlə, İlyas Əfəndiyev həm yazıçı həm də insan kimi bütöv və özünəməxsus bir xarakterə malik olan kamil bir şəxsiyyət idi.

**Bəxtiyar Vahabzadə,**
*Xalq şairi, akademik*

İlyas Əfəndiyev bir insan, bir yazıçı və bir vətəndaş kimi öz missiyasını yerinə yetirdi və dünyadan köçdü. Amma mən bu köçdən sonrakı bütün bu müddət ərzində onun varlığını yalnız mənən yox, cismən də daima hiss etmişəm, mənə elə gəlir ki, (həmişə də belədir), bax, bu dəm, mən bu sətirləri yazarkən də o burdadır, mənim başımın üstündədir, bizi görür, müşahidə edir, hər şeydən xəbərdardır və bu sətirləri oxuyur, indiki ali məqa- mının bizim – bu dünyanın adamlarının – dərk edə bilmədiyi bu sətirlərə qiymət verir.

**Elçin,**
*Xalq yazıçısı*

Unudulmaz İlyas müəllim! Özünlə əbədiyyət dünyasına yazılmamış neçə şah əsərinizi apardınız? Ey üzü nurlu el məhəbbəti qazanmış xoşbəxt sənətkar! Sənin yaratdığın əsərlər də, həm ana, həm ata qayğısı, məhəbbət ilə böyütdüyün oğullar da vətəndaşlıq hüququ qazanmışlar. Rahat yat, böyük sənətkar! Vətən oğlu! Qəbrin nurla dolsun!

**Mirvarid Dilbazi**,
*Xalq şairi*

İlyas Əfəndiyev dahi Cəfər Cabbarlıdan sonra milli səhnəmi- zin çətin, ağır və şərəfli yükünü az qala yarım əsr öz çiyinlərində apardı və Cəfərdən sonra ikinci nəfəs verdi, milli teatrımızı yeni zirvələrə qaldırdı, özünün İlyas Əfəndiyev teatrını yaratdı.

**Cabir Novruz,**
*Xalq şairi*

Böyük sənətkarlıq səriştəsinə və zəngin təxəyyülə malik İlyas Əfəndiyev həqiqəti bir an da unutmur, tariximizdə bugünümüzün, bugünümüzdə isə tariximizin problemlərini əks etdirir.

**Fərəməz Maqsudov,**
*akademik*

İlyas müəllim böyük yazıçı olmaqla yanaşı, həm də böyük el ağsaqqalı idi... Onda olan qaynar həyat eşqi məni sevindirirdi – ölümün ondan çox-çox uzaqda olduğunu zənn edirdim. Lakin bir gün... eşitdiyim xəbər məni sarsıtdı... Çünki Azərbaycan, Azərbaycan xalqı, xüsusilə ədəbiyyat və teatr həvəskarları qüdrətli sənətkarı itirmişdi. Bəli, amansız ölüm öz sözünü demişdi: artıq o, yox idi. Nə etmək olar? Bu, həyatın dəyişməz qanunudur.

**Əhliman Əmiraslanov**,
*akademik*

Yazıçı İlyas Əfəndiyev son illər nəsr sahəsində daha məhsuldar və səmərəli işləmişdir. Onun povest və romanları, xüsusən, əxlaqi-psixoloji problemlərin qoyuluşu və həlli sahəsində, müasir nəsrimizin axtarış və nailiyyətlərini ən yaxşı əks etdirən əsərlərdəndir. Sevindirici haldır ki, İlyas Əfəndiyevin son pyesi də bu nəsrin nailiyyətləri zəminində və səviyyəsində yazılmışdır.

Məhz buna görədir ki, "Sən həmişə mənimləsən" pyesi ədəbi həyatımızda yeni söz, müvəffəqiyyətli bir hadisə olub lirik, perspektivli dramaturgiya, müasir

psixoloji teatr yaratmaq yolunda yaxşı bir təşəbbüs, təcrübə kimi də səslənə bilmişdir.

Azərbaycan tarixi barədə klassik sənədlər – yeddi "Qarabağnamə" var. Bütünlüklə İlyas Əfəndiyevin yaradıcılığını mən səkkizinci "Qarabağnamə" hesab edirəm.

**Yaşar Qarayev,**
*AMEA-nın müxbir üzvü,*
*Əməkdar elm xadimi, professor*

İlyas Əfəndiyev əsərlərində insani borc, vətəndaş vəzifəsi, fərdi və cəmiyyətin qarşılıqlı münasibətləri, ailə və əxlaq problemləri barədə həmişə təravətli söhbət açır, öz qənaətlərini məhz yeni bədii obrazlar vasitəsilə, özünəməxsus orijinal üslubda ifadə edir.

**Bəkir Nəbiyev,**
*akademik*

Onun bütün hekayələri, oçerkləri, dramları, roman və povestləri, kino ssenariləri, məqalələri, tam halda yaradıcılığı müasir həyatın duru və şəffaf çeşməsindən su içmişdir... Onun bütün əsərlərində əsas, aparıcı problem müasir insan, bu insanın psixoloji, əxlaqi cəhətdən formalaşması, onun davranışı, fikir və düşüncələri, mənəvi dünyasıdır.

**Qulu Xəlilov,**
*professor*

Cəsarətlə deyə bilərəm ki, böyük dramaturqumuz Cəfər Cabbarlıdan sonra teatrımız üçün yananlardan biri də İlyas Əfəndiyev olmuşdur. Onun bütün əsərlərində... al-əlvan rənglərə, naxışlara rast gəlirik... O, zəngin təfəkkürə, geniş müşahidə qabiliyyətinə malik sənətkarlardandır. Həm də, mən deyərdim ki, elə bəstəkar qəlbli sənətkardır. Onun dram əsərlərindəki müsbət obrazlar təkcə xarakterləri ilə deyil, bəzən lirik, kövrək mahnıları ilə də yadda qalırlar.

**Səid Rüstəmov,**
*Xalq artisti, bəstəkar*

İlyas Əfəndiyev insanların şüurunda və psixologiyasında baş verən təbəddülatı əks etdirməyə çalışan, psixoloji ziddiyyət və çarpışmaları əsərlərin mərkəzi konfliktinə çevirən yazıçıdır. Onun əsərlərində xüsusilə pyeslərində xarici toqquşmalar, zahiri effekt xatirinə düzəldilmiş səhnələr yoxdur. O, həmişə qəhrəmanlarının səciyyəsini, onların həyata, ictimai hadisələrə müna-

sibətini psixoloji cəhətdən araşdırır, çox zaman ilk baxışda xırda, intim görünən konfliktləri genişləndirib siyasi məna və mahiyyətlə zənginləşdirir.

**İsmayıl Şıxlı,**
*Xalq yazıçısı*

Mən İlyas Əfəndiyevin "Sarıköynəklə Valehin nağılı" romanının oxucular və ədəbi ictimaiyyət tərəfindən hərarətlə qarşılanmasının əsas səbəbini onun bədii keyfiyyətində, sənətkarlıqla yazılmasında görürəm. Xalqı narahat edən problemlərə toxunmaq, onlardan bədii əsərlərdə vətəndaşlıq məsuliyyəti ilə söz açmaq vacib şərtlərdəndir və bu, ədəbiyyatın zəruri vəzifələrindən biridir...

Romanda hadisələr dramatik gərginlik və ardıcılıqla bir-birini izləyir, dərin maraq hissi ilə oxucunu arxasınca aparır. Müasirlik böyük şərtdir.

**Hüseyn Abbaszadə,**
*Xalq yazıçısı*

Elə sənətkarlar var ki, yaratdığı əsər, fərqi yoxdur, pyes olsun, tablo olsun, musiqi olsun, insanı düşündürür, onun hisslərinə hakim kəsilir, gözəlliklər aləminə çəkib aparır, haqq-ədalət uğrunda mübarizəyə səsləyir, həqiqəti axtarıb tapmaqda ona kömək edir. Mənim hörmətli dostum İlyas da belə sənət adamlarındandır.

**Tahir Salahov**,
*Xalq rəssamı*

Sevimli Xalq yazıçımız İlyas Əfəndiyevin əsərləri dağlar arxasındakı uzaq dağ kəndlərində, sonsuz görünən yeniyetməlik və gənclik illərində bizim yaxın dostumuz olmuşdur.

**Sabir Rüstəmxanlı,**
*Xalq şairi*

İlyas Əfəndiyevin yaradıcılığı heç şübhəsiz Azərbaycan ədəbiyyatında bir mərhələ təşkil edir.

**Mövlud Süleymanlı,**
*Xalq yazıçısı*

Müasirlik və novatorluq İlyas Əfəndiyev yaradıcılığının mühüm məziyyətlərindəndir. Yenilik hissi onda qüvvətlidir. O, daim axtarışda olan məzmun, mövzu və bədii formalarla ədəbiyyatımızı zənginləşdirməyə çalışan

yazıçılardandır. İlyas Əfəndiyev romantik üslubda yazılmış hekayə və povestlərin, psixoloji dramların və lirik səpkili realist romanların müəllifidir. Liriklik, romantika, psixoloji təhlil onun yaradıcılıq üslubunun ana xəttidir.

**Seyfulla Əsədullayev,**
*professor*

İlyas Əfəndiyev qüdrətli sənətkar idi.

İlyas Əfəndiyev qayğıkeş ata idi. İlyas Əfəndiyev gözəl baba idi. İlyas Əfəndiyev yaxşı dost idi.

**Tofiq Quliyev,**
*Xalq artisti, bəstəkar*

İlyas müəllimin yoxluğundan ürək ağrısı ilə söhbət açanda, daha qüvvətli bir duyğu qəlbimi bürüyür: İlyas müəllim yaşayır, Azərbaycan xalqı kimi, Cəfər Cabbarlı kimi, Üzeyir Hacıbəyov kimi, Hüseyn Cavid kimi...

**Leyla Bədirbəyli,**
*Xalq artisti*

Ümumiyyətlə, bir oxucu kimi mənə elə gəlir ki, İlyasda lirik əhval-ruhiyyə dəmir ağacının həyat eşqi kimi güclüdür. Amma yaxşı ki, heç vaxt lirikaya nə isə lirik bir səhnə və yaxud vəziyyət yaratmaq xatirinə meyl etmir. Onun lirikası qəhrəmanlarının psixoloji vəziyyəti ilə və bilavasitə yaranmış zəruri situasiya ilə bağlı olur.

**Əli Zeynalov,**
*Xalq artisti*

İlyas Əfəndiyev dramaturgiyası həqiqətən Azərbaycan teatrının simasıdır.

**Polad Bülbüloglu,**
*Xalq artisti, bəstəkar*

İlyasın yoxluğuna inana bilmirəm. İlyasın indi də haradasa, sakit bir guşədə əyləşib bizi heyrətə gətirən yeni əsər ümid bəsləyirəm. Allah sənə rəhmət eləsin, qardaşım, sən onun – o böyük Allahın sənə bağışladığı qənirsiz istedadı xalqından, millətindən əsirgəmədin. Geriyə baxmaya bilərsən. Nigaran, nəyisə demədim deyə, düşünməyə bilərsən. Qardaşım sən o Allahın neməti olan yaradıcılığını bol-bol verdin insanlara. Ruhun şad olsun!

**Əzizə Cəfərzadə,**
*Xalq yazıçı, professor*

İlyas Əfəndiyev mənim "Qarğış" povestim barədə "Açıq məktub" yazmışdı... Onda – mənim ümidsizlik bataqlığında tək-tənha, min bir şübhə, qayğı, çaşqınlıq içində çapalayan anımda – gözəgörünməz kömək əlini uzadıb, məni o bataqlıqdan çıxarmışdı və bu işi heç bir məna güdmədən, təmənnasız, yalnız Böyük ədəbiyyat naminə etmişdi. Mən bu hadisədən sonra bir daha o şübhə və çaşqınlıqlar bataqlığına düşmədim və bugünəcən də məni min bir bataqlıqdan çox-çox uca nöqtələrdə saxlayan qüvvələrdən biri bəlkə də, ən qiymətlisi İlyas müəllimin həmin o məktubunun məndə yaratdığı ədəbiyyata və özümə inam hissidi yəqin...

**Afaq Məsud,**
*Xalq yazıçı*

İlyas Əfəndiyevin yaratdığı surətlərdə bir kövrəklik, yanğı və yanıqlıq var. "Unuda bilmirəm"də Nərmini xatırlayın. Görün bu qız necə də məhəbbəti dünyada hər şeydən üstün tutur. Onun üçün məhəbbət həyat deməkdir. Bu rolda mən 250 dəfədən çox səhnəyə çıxmışam. Hər dəfə də Nərmindən ayrılıb Amaliya olanda təəssüflənmişəm. Həyatdan götürülmüş belə obrazları qələmə alan İlyas Əfəndiyev, şübhəsiz ki, ürəyinin bütün hərarətini onlara bəxş etmişdir.

**Amaliya Pənahova,**
*Xalq artisti*

İlyas Əfəndiyev hansı mövzuda yazırsa yazsın, cəmiyyətimizin inkişaf meyillərini, dövrümüzün müsbət tendensiyalarını vətəndaşlıq amalı güclü olan qəhrəmanlar vasitəsilə tamaşaçılara çatdırır.

**Həsən Turabov,**
*Xalq artisti*

Biz aktyorlar İlyas Əfəndiyevin tamaşalarında çıxış etməyi özümüzə fəxr bilmişik.

**Şəfiqə Məmmədova,**
*Xalq artisti*

Əgər teatrımızın yaşlı nəslə mənsub olan aktyorları bir aktyor kimi yetişmələrində müasirləri Cəfər Cabbarlının və onun dramaturgiyasının böyük rolundan fəxrlə danışırdılarsa, biz də, yəni altmışıncı illərdə səhnəyə gəlmiş gənclər, cəsarətlə deyə bilərik ki, səhnəyə gəlişimizdə, bir aktyor kimi püxtələş-

məyimizdə müasirimiz İlyas Əfəndiyevin və onun zəngin dramaturgiyasının müstəsna rolu olmuşdur.

**Fuad Poladov,**
*Xalq artisti*

Həyatda kimə və nəyə görə yaşamağımın səbəbini dərk etdi- yimə və bir də Vətənimə, xalqıma olan sonsuz sevgimə görə tək bir insana – unudulmaz İlyas Əfəndiyeva borcluyam...

**Firəngiz Mütəllimova,**
*Xalq artisti*

İlyas Əfəndiyev istədiyi rejissorla işləməyi bacaran bir şəxsiyyət idi. Onun nüfuzu, istedadı, qələminin qüdrəti qarşısında hamı baş əyirdi, bir sözünü iki edən yox idi. O, bəyəndiyi rejissoru hər hansı incəsənət müəssisəsindən çağırıb tamaşasının səhnə təcəssümünü verdirə bilərdi, lakin mənə inamı, mənən etibarı qəlbimi fərəh və qürurla doldururdu.

İlyas Əfəndiyev dramaturgiyası məni bir rejissor kimi yetişdirirdi. Və eyni zamanda bu dramaturgiya vasitəsilə mən Azərbaycan tarixini, milli adət-ənənələrimizi, ədəbi dilimizin gözəlliyini, ziyalı davranışını, tarixi yerlərimizin adlarını səhnə təcəssümü ilə xalqımıza çatdırırdım. Nəticədə isə xalqımıza tutumu böyük olan, masştablı tamaşalar bəxş olunurdu.

Böyük dramaturqun quruluş verdiyim son əsəri "Hökmdar və qızı" tamaşası oldu. İlyas müəllim bu tamaşanı çox sevirdi, bütün məşqlərində iştirak edirdi. İlyas müəllim bu əsərində böyük məhəbbətlə sevdiyi doğma Qarabağının tarixini böyük məhəbbətlə yazmış, tarixi faktların dəqiqliyini nəzərə almışdı. İlyas müəllim konyuktur əsərləri də, belə əsər yazanları da sevmirdi. On səkkizinci əsr Qarabağ tarixinə dair yazılmış əsərlərin bir çoxunu bəyənmir, onları tarixin təhrifi ilə qiymətləndirirdi.

...Allah sizə rəhmət eləsin, İlyas müəllim. Sizin əsərləriniz mənim yaradıcılığımda bir rəmz kimi yaşayacaq. Və mən sizin əsərlərinizə həmişə bir tələbəniz kimi müraciət edəcəyəm. Çalışacağam ki, gələn hər nəsil mənim rejissuramda öz töhfəsini alsın, sizi daha yaxından tanısın.

**Mərahim Fərzəlibəyov,**
*Xalq artisti*

İlyas Əfəndiyevin pyeslərinin tamaşası Milli teatrda aktyor yaradıcılığında lirik-psixoloji üslubun təməlini qoymaqla, həmin istiqamətdə neçə-neçə aktyor nəslinin formalaşmasına zəmin yaratmışdır.

"İlyas Əfəndiyev teatrı" Azərbaycan səhnəsinə lirik-psixoloji ovqat, həyati, canlı obrazlar, səmimi iqlim, bəşəri problemlərə insan münasibətlərinin pəncərəsindən baxmaq, həzin, kövrək, lirik-dramatik dil, ruhumuzu, duyğumuzu təmsil edən çağdaşlarımızın xarakterlərini, zamanın nəbzini tutan sürət – ritm, əsrimizin dramatik, təzadlı dinamikasını... gətirib.

İlyas Əfəndiyev zəngin dünya ədəbiyyatının gözəl bilicisi olmaqla yanaşı, milli tariximizin bütün mərhələlərini dərindən öyrənən müdrik ədibdir. Məhz ədibdir, yəni həmişə bizimlədir. Onun barəsində keçmiş zamanda danışmaq olmur...

**İlham Rəhimli,**
*Əməkdar incəsənət xadimi,*
*professor*

Əziz İlyas müəllim! Siz çiyinlərinizi, ürəyinizi, həyatınızı verib Azərbaycanı XXI yüzilliyin astanasına gətirib çıxardınız.

...Qəbriniz nurla dolsun, Torpağınız nur olsun! Daha gözəl bir dünyada görüşənədək, İlyas müəllim!

**Vaqif Bayatlı Odər,**
*Əməkdar incəsənət xadimi, şair*

İlyas müəllim, mən sizinlə birgə işlədiyim birinci tamaşadan "Büllur saray"dan tutmuş sonuncu tamaşa – "Hökmdar və qızı"na qədər böyük bir mənəvi dünya qazandım. Bu dünya çox ülvi, çox işıqlı, çox böyük, çox zəngin idi...

Nə yaxşı ki, mənim sənət dünyamda Siz varmışsınız, İlyas müəllim. Əlvida! Ürəyimdə qoyub getdiyiniz bu işıqlı xatirələr üçün sağ olun!

**Bəsti Cəfərova,**
*Xalq artisti*

İlyas Əfəndiyevin ədəbi yaradıcılıq portreti üçün nəzərdə tutula biləcək cizgilər çoxdur, onları saymaqla qurtarmaz. Lakin həmin cizgilərin hamısı üçün ümumi olan, onların hamısına aşılanmış bir keyfiyyət var: vüsət və şairanəlik.

**Əkbər Ağayev,**
*filologiya elmləri doktoru, professor*

İlyas Əfəndiyev müasirlərimizdən yazır. Cəmiyyətin inkişafının müxtəlif mərhələlərində inqilabın qələbəsi və elmi-texniki inkişafla əlaqədar qarşıya çıxan mürəkkəb ictimai-siyasi, iqtisadi-mədəni, mənəvi-əxlaqi problemlərin həlli yolunda çalışan, axtaran müasirlərimizin ictimai fəaliyyəti və daxili aləmləri onun əsas bədii tətbiq hədəfidir.

**Yəhya Seyidov,**
*Əməkdar elm xadimi,*
*professor*

# I HİSSƏ

# ƏSƏRLƏRİ

## 1.1. Kitabları

**1939**

**1. Kənddən məktublar**: [povest və hekayələr] / İlyas Əfəndiyev; red. Sabit Rəhman. – Bakı: Azərnəşr, 1939. – 122 s.

***Kitabın içindəkilər*: *Povest:*** Kənddən məktublar. – ***Hekayələr:*** Qarımış oğlan; Uxajor; Qızbəs xala; Mirzə İman.

**1945**

**2. Aydınlıq gecələr**: [povest və hekayələr] / İlyas Əfəndiyev; red. Adil Əfəndiyev. – Bakı: Azərnəşr, 1945. – 116 s.

***Kitabın içindəkilər*:** Duma; Sən ey qadir məhəbbət...; Apardı sellər Saranı; Aydınlıq gecələr; Gözlənilməyən sevgi; Kiçik bir poema; Qarı dağı; Qoca tarını çaldı; Qəhrəman ilə bülbülün nağılı.

**1949**

**3. Pyeslər** / İlyas Əfəndiyev; red. Ə.Rəcəbov. – Bakı: Uşaq- gəncnəşr, 1949. – 156 s.

***Kitabın içindəkilər*:** Bahar suları; İşıqlı yollar; Maraqlı hadisə; İz ilə.

**4. Şamama**: [iki dəfə Sosialist Əməyi Qəhrəmanı Şamama Həsənova haqqında] / Ə.İlyas; red. H.Mehdi. – Bakı: Azərnəşr, 1949. – 40 s.

**1950**

**5. Qoruqlarda**: [kiçikyaşlı uşaqlar üçün hekayələr] / İlyas Əfəndiyev; red. Ə.Babayeva. – Bakı: Uşaqgəncnəşr, 1950. – 52 s.

***Kitabın içindəkilər*:** Qoruqlarda; Murad dayının sevinci; Ceyran ovu; Turac; Ovçunun nağılı.

**1951**

**6. Şamama Həsənova** / İlyas Əfəndiyev; red. C.Məcnunbəyov. – Bakı: Uşaqgəncnəşr, 1951. – 56 s.

**1952**

**7. Torpağın sahibi**: [kinopovest] / İlyas Əfəndiyev; red. N.Babayev. – Bakı: Uşaqgəncnəşr, 1952. – 52 s.

**1955**

**8. Bahar suları**: [pyes] / İlyas Əfəndiyev; red. İ.Şəms. – Bakı: Azərnəşr,1955. – 76 s.

**9. Hekayələr** / İlyas Əfəndiyev; red. Y.Əzimzadə. – Bakı: Uşaqgəncnəşr, 1955. – 104 s.

***Kitabın içindəkilər*:** Yarımçıq qalmış portret haqqında mahnı; Apardı sellər Saranı; Qarı dağı; Gülaçar; Görüş; Su dəyirmanı.

**1959**

**10. Seçilmiş əsərləri** / İlyas Əfəndiyev; red. Ə.Mehdiyeva. – Bakı: Azərnəşr, 1959. – 404 s.

***Kitabın içindəkilər*: *Hekayələr:*** Aydınlıq gecələr; Apardı sellər Saranı; Duma; Kiçik bir poema; Qəhrəman ilə bülbülün nağılı; Yarımçıq qalmış portret haqqında mahnı; Tar; Qarı dağı; Xəncər; Gülaçar; Görüş; Su dəyirmanı; Yaylaq qonşumuz; Şəhərdən gələn ovçu; Yun şal; Torpağın sahibi (Kinopovest). – ***Pyeslər:*** Bahar suları; Atayevlər ailəsi.

**11. Söyüdlü arx**: [roman] / İlyas Əfəndiyev; red. M.Əfəndiyev. – Bakı: Uşaqgəncnəşr, 1959. – 220 s.

**1960**

**12. Körpüsalanlar**: [povest] / İlyas Əfəndiyev; red. R.Şıxəliyeva. – Bakı: Uşaqgəncnəşr, 1960. – 152 s.

**1964**

**13. Dağlar arxasında üç dost**: [roman] / İlyas Əfəndiyev; red. Mirzə Müştaq. – Bakı: Azərnəşr, 1964. – 376 s.

**14. Seçilmiş əsərləri**: [2 cilddə] / İlyas Əfəndiyev; red. Ə.Mehdiyeva. – Cild 1. – Bakı: Azərnəşr, 1964. –371 s.

***Kitabın içindəkilər*: *Romanlar:*** Söyüdlü arx; Körpüsalanlar. – ***Hekayələr:*** Apardı sellər Saranı; Qəhrəman ilə bülbülün nağılı; Qarı dağı; Tar; Qırçı və qızıl çiçək.

**1965**

**15. Seçilmiş əsərləri**: [2 cilddə] / İlyas Əfəndiyev; red. Ə.Mehdiyeva. – Cild 2. – Bakı: Azərnəşr, 1965. – 372 s.

***Kitabın içindəkilər*: *Povestlər:*** Torpağın sahibi; Aydınlıq gecələr. – ***Hekayələr:*** Duma; Kiçik bir poema; Gülaçar; Su dəyirmanı; Yaylaq qonşumuz; Şəhərdən gələn ovçu; Yun şal; Görüş; Yarımçıq qalmış portret haqqında mahnı; Xəncər. – ***Pyeslər:*** Bahar suları; Atayevlər ailəsi.

**1967**

**16. Dağlar arxasında üç dost**: [roman] / İlyas Əfəndiyev; red. Z.Qiyasbəyli. – 2-ci nəşri. – Bakı: Azərnəşr, 1967. – 364 s.

**17. Zəmidə bir turac səslənirdi**: [ortayaşlı uşaqlar üçün hekayələr] / İlyas Əfəndiyev; red. S.Hüseynova. – Bakı: Gənclik, 1967. – 71 s.

***Kitabın içindəkilər*:** Qoruqlarda; Yasəmən ağacı; Murad dayı; Ceyran ovu; Zəmidə bir turac səslənirdi; Ovçunun nağılı; İz ilə; Şəhərdən gələn ovçu; Yaylaq qonşumuz.

**1969**

**18. Seçilmiş əsərləri**: [4 cilddə] / İlyas Əfəndiyev; red. S.Hüseynova. – Cild 1. – Bakı: Azərnəşr, 1969. – 458 s.

***Kitabın içindəkilər*: *Seyfulla Əsədullayev.*** İlyas Əfəndiyevin yaradıcılığı haqqında. ***Kiçik povestlər və müxtəlif illərin hekayələri:*** Apardı sellər Saranı; Aydınlıq gecələr; Duma; Qəhrəmanla bülbülün nağılı; Kiçik bir poema; Tar; Yarımçıq qalmış portret haqqında mahnı; Qarı dağı; Xəncər; Görüş; Gülaçar; Su dəyirmanı; Yaylaq qonşumuz; Şəhərdən gələn ovçu; Yun şal; Qırçı və qızıl çiçək. Uşaqlar üçün hekayələr: Zəmidə bir turac səslənirdi; İz ilə; Ovçunun nağılı; Ceyran ovu; Yasəmən ağacı; Qoruqlarda. Roman: Söyüdlü arx.

**1970**

**19. Seçilmiş əsərləri**: [4 cilddə] / İlyas Əfəndiyev; red. S.Hüseynova. – Cild 2. – Bakı: Azərnəşr, 1970. – 306 s.

***Kitabın içindəkilər*: *Pyeslər:*** Bahar suları; Atayevlər ailəsi; Sən həmişə mənimləsən, yaxud boy çiçəyi. – ***Povest:*** Torpağın sahibi. Roman: Körpüsalanlar.

**1973**

**20. Seçilmiş əsərləri**: [4 cilddə] / İlyas Əfəndiyev; red. Z.Qiyasbəyli. – Cild 3. – Bakı: Azərnəşr, 1973. –396 s.

***Kitabın içindəkilər*:** Dağlar arxasında üç dost.

**21. Seçilmiş əsərləri**: [4 cilddə] / İlyas Əfəndiyev; red. Z.Qiyasbəyli. – Cild 4. – Bakı: Azərnəşr, 1973. – 396 s.

***Kitabın içindəkilər*: *Pyeslər:*** Mənim günahım; Unuda bilmirəm; Məhv olmuş gündəliklər; Mahnı dağlarda qaldı; Odlu səhradan gəlmiş şeytan; On manatlıq lüstr; Bizə inan. Kinonovella: Tufandan sonra.

**1974**

**22. Söyüdlü arx**: [povest və hekayələr] / İlyas Əfəndiyev; red. İsmayıl Qarayev. – Bakı: Gənclik, 1974. – 362 s.

***Kitabın içindəkilər*: *Povestlər:*** Söyüdlü arx; Körpüsalanlar. Hekayələr: Yun şal; Qırçı və qırmızı çiçək; Apardı sellər Saranı; Qarı dağı; Qəhrəman ilə bülbülün nağılı.

**1979**

**23. Sarıköynəklə Valehin nağılı**: [roman] / İlyas Əfəndiyev; red. S.Məmmədova. – Bakı: Gənclik, 1979. – 328 s.

**1980**

**24. Sarıköynəklə Valehin nağılı**: [roman] / İlyas Əfəndiyev; red. S.Məmmədova. – 2-ci nəşri. – Bakı: Gənclik, 1980. – 327 s.

**1981**

**25. Geriyə baxma, qoca**: [roman və komediya] / İlyas Əfəndiyev; red. Cavad Zeynal. – Bakı: Yazıçı, 1981. – 356 s.

***Kitabın içindəkilər*:** Geriyə baxma, qoca (roman); Qəribə oğlan (komediya).

**26. Qırçı və qırmızı çiçək**: [hekayələr] / İlyas Əfəndiyev; red. Ç.Əlioğlu. – Bakı: Gənclik, 1981. – 190 s.

***Kitabın içindəkilər*:** Duma; Qəhrəman ilə bülbülün nağılı; Kiçik bir poema; Tar; Yarımçıq qalmış portret haqqında mahnı; Qarı dağı; Xəncər; Görüş; Gülaçar; Su dəyirmanı; Apardı sellər Saranı;Yaylaq qonşumuz; Şəhərdən gələn ovçu; Yun şal; Qırçı və qızıl çiçək; Zəmidə bir turac səslənirdi; İz ilə; Ovçunun nağılı; Ceyran ovu; Yasəmən ağacı; Qoruqlarda.

**1982**

**27. Üçatılan** / İlyas Əfəndiyev; red. Ç.Əlioğlu. – Bakı: Gənclik, 1982. – 398 s.

***Kitabın içindəkilər*: *Povest:*** Üçatılan. Roman: Körpüsalanlar. Pyes: Sən həmişə mənimləsən; Salmanov İ. Müasirlik duyğusu ilə (Son söz).

**1984**

**28. Seçilmiş əsərləri**: [6 cilddə] / İlyas Əfəndiyev; red. Cavad Zeynal. – Cild 1. – Bakı: Yazıçı, 1984. – 364 s.

***Kitabın içindəkilər***: Yaşar Qarayev. Müasirliyin sabitliyi (müqəddimə). Hekayələr: Duma; Qəhrəman ilə bülbülün nağılı; Kiçik bir poema; Tar; Yarımçıq qalmış portret haqqında mahnı; Qarı dağı; Xəncər; Görüş; Gülaçar; Su dəyirmanı; Apardı sellər Saranı; Yaylaq qonşumuz; Şəhərdən gələn ovçu; Yun şal; Qırçı və qızıl çiçək; Roman: Söyüdlü arx.

**29. Seçilmiş əsərləri**: [6 cilddə] / İlyas Əfəndiyev; red. Cavad Zeynal. – Cild 2. – Bakı: Yazıçı, 1984. – 359 s.

***Kitabın içindəkilər*: *Roman:*** Körpüsalanlar. Povest: Aydınlıq gecələr. – ***Pyeslər:*** Bahar suları; Atayevlər ailəsi; Sən həmişə mənimləsən.

**30. Seçilmiş əsərləri**: [6 cilddə] / İlyas Əfəndiyev; red. Cavad Zeynal. – Cild 3. – Bakı: Yazıçı, 1984. – 380 s.

***Kitabın içindəkilər: Roman:*** Dağlar arxasında üç dost. Povest: Torpağın sahibi.

**31. Seçilmiş əsərləri**: [6 cilddə] / İlyas Əfəndiyev; red. Cavad Zeynal. – Cild 4. – Bakı: Yazıçı, 1984. – 380 s.

***Kitabın içindəkilər*: *Roman:*** Sarıköynəklə Valehin nağılı. Kinonovella: Tufandan sonra. – ***Hekayələr:*** Şair Səməd Vurğun haqqında hekayə; Daş hasar.

**32. Seçilmiş əsərləri**: [6 cilddə] / İlyas Əfəndiyev; red. Cavad Zeynal. – Cild 5. – Bakı: Yazıçı, 1984. – 345 s.

***Kitabın içindəkilər*: *Roman:*** Geriyə baxma, qoca. –***Komediya:*** Qəribə oğlan.

**33. Seçilmiş əsərləri**: [6 cilddə] / İlyas Əfəndiyev; red. Cavad Zeynal. – Cild 6. – Bakı: Yazıçı, 1984. – 300 s.

***Kitabın içindəkilər*: *Roman:*** Üçatılan. – ***Pyeslər:*** Mənim günahım; Məhv olmuş gündəliklər.

**1987**

**34. Üç roman** / İlyas Əfəndiyev; red. Musa Ələkbərli. – Bakı: Gənclik, 1987. – 534 s.

***Kitabın içindəkilər*****:** Körpüsalanlar; Üçatılan; Geriyə baxma, qoca.

**1989**

**35. Bizim qəribə taleyimiz** / İlyas Əfəndiyev; red. M.Hüseynova. – Bakı: Yazıçı, 1989. – 533 s.

***Kitabın içindəkilər: Pyeslər:*** Xurşidbanu Natəvan; Büllur sarayda; Şeyx Xiyabani; Bizim qəribə taleyimiz; Xatirələr, duyğular; Dostumuzu xatırlayarkən; Yeri görünən adam; Sənətkarın taleyi; Tofiq Kazımovu xatırlayarkən; Çovğunlu bir qış günündə. – ***Roman:*** Geriyə baxma, qoca.

**1994**

**36. Ceyran ovu**: [hekayələr] / İlyas Əfəndiyev; red. Məmməd Namaz. – Bakı: Gənclik, 1994. – 101 s.

***Kitabın içindəkilər*****:** Ceyran ovu; Qoruqlarda; Yasəmən ağacı; Zəmidə bir turac səslənirdi; Ovçunun nağılı; İz ilə; Şəhərdən gələn ovçu; Qəhrəman ilə bülbülün nağılı; Tar; Qarı dağı; Xəncər; Apardı sellər Saranı; Görüş; Qırçı və qızıl çiçək.

**1997**

**37. Sən ey böyük yaradan** / İlyas Əfəndiyev; red. G.Əmrullah qızı. – Bakı: Şərq-Qərb, 1997. – 162 s.

***Kitabın içindəkilər*****:** ***Sabir Rüstəmxanlı.*** İtirilmişlərin ağrısı. Xalq yazıçısı haqqında. – ***Qabil.*** Fədai. Xalq yazıçısı, qüdrətli dramaturq İlyas Əfəndiyevə (şeir). – ***Son illərin povest və hekayələri:*** Xan qızı Gülsənubərlə Tarzən Sadıqcanın nağılı (kiçik povest); Qaçaq Süleymanın ölümü (kinopovest); Yusif və Esfir (Cavan və istedadlı sənətkar dostum M.Mirzəyevə ithaf edirəm); Vəzir Allahverdi xan və Bəhlul Danəndə; Abidin yuxusu; Həyatın əbədi ahəngi; Sağ-sağan; İsa-Musa; Sən ey böyük yaradan. Xatirələr, düşüncələr: Hacı Axundun cənnət bağı necə oldu (xatirə-hekayə); Çovğunlu bir qış günündə; Orfey quyudan çıxandan sonra nə gördü; Mənim ssenari macəram, yaxud Sara xanımı birinci dəfə eşidəndə; Şairənin qisməti (Nigar xanımı xatırlayarkən); Sabit Rəhman haqqında; Mənliyimiz və mədəniyyətimiz (Son 70 ildəki mənəvi aləmi-mizə bir nəzər); Qədimlərdən gələn səs (Yeni əlifbaya keçid və milliliyi-miz haqqında düşüncələr).

## 2002

**38. Seçilmiş əsərləri**: [7 cilddə] / İlyas Əfəndiyev; baş red. Elçin; red. Dilsuz. – Cild 1: Hekayələr. – Bakı: Çinar-Çap, 2002. – 448 s.

